AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 APREL 2019-cu il ÇƏRŞƏNBƏ № 82 (6409) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Masallı rayonunun Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Otuz səkkiz min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon (altı milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2019-cu il.**

# Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırdı. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayaraq, bu Zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzuladı və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini dedi.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də və 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 2, maddə 118; 2016, N 5, maddə 862, N 8, maddələr 1373, 1384; 2017, N 1, maddə 46, N 7, maddə 1345, N 12 (I kitab), maddə 2340; 2018, N 10, maddə 2010, N 11, maddə 2287, N 12 (I kitab), maddə 2603) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.29-cu yarımbəndində "investisiya qoyuluşu sahəsində dövlət zəmanəti ilə alınan kreditlərin layihələri üzrə müqavilələrin (sazişlərin, kontraktların) və ya təkliflərin iqtisadi ekspertizasını aparmaq, belə kreditlərə dair xarici investorlarla danışıqlarda iştirak etmək," sözləri "Azərbaycan Respublikası adından alınan borc hesabına maliyyələşdirilməsi təklif edilən layihələrin (o cümlədən icrada olan layihə üçün əlavə maliyyələşdirmənin) və kreditlərin zəmanətlə alınması barədə müraciətlərin zəruriliyini, prioritetliyini, maliyyə dayanıqlığını, ölkənin sosial-iqtisadi inkişafına təsirini qiymətləndirmək," sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 12, maddə 2100; 2018, N 10, maddə 1991) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın 1.3-cü bəndində "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanına" sözləri "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanına" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2019-cu il.**

## *Prezident İlham ƏLİYEV:*

# Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim

**Fransanın və dünyanın mədəni irs incilərindən biri olan Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim.**

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün Twitter səhifəsində yazıb.

"Ümid edirəm ki, abidə qısa müddət ərzində bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacaq", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 9, maddə 565; 2000, N 12, maddə 833; 2005, N 10, maddə 876; 2007, N 5, maddə 437; 2009, N 6, maddə 395; 2010, N 4, maddə 276; 2011, N 2, maddə 71; 2016, N 1, maddə 34) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10-cu maddənin ikinci hissəsinin onuncu abzasından ", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavininin" sözləri çıxarılsın.

**2.** 12-ci maddənin ikinci hissəsi üzrə:

*2.1.* altıncı abzasdan ", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini" sözləri çıxarılsın;

*2.2.* doqquzuncu abzas onuncu abzas hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti haqqında illik hesabata baxır və rəy verir;".

**3.** 22-ci maddəyə "təşkilati" sözündən əvvəl "hüquqi," sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 fevral 2019-cu il.**

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1513-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1513-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 aprel 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 mart 2019-cu il.**

## GUAM üzvü olan dövlətlərin gömrük idarələri arasında GUAM üzvü olan dövlətlərin dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** GUAM üzvü olan dövlətlərin gömrük idarələri arasında GUAM üzvü olan dövlətlərin dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 2018-ci il oktyabrın 5-də Kişinyov şəhərində imzalanmış Protokol təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə GUAM-ın Katibliyinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 aprel 2019-cu il.**

*Türkiyə KİV-ləri:*

# Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir


Star Son Dakika Güncel Dünya Ekonomi Spor Yaşam Sanat Eğitim Yazarlar
DÜNYA
'Ermenistan, işgal altındaki toprakları uyuşturucu için kullanıyor'
Azerbaycan Başbakanı Novruz Memmedov, işgalin uluslararası terörizm ve yasa dışı uyuşturucu kaçakçılığı için uygun koşullar yarattığını söyleyerek , 'Ermenistan, işgal altındaki Azerbaycan topraklarını uyuşturucu üretimi ve trafiği için kullanıyor' dedi.


**Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (İDEC) Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Türkiyə KİV-ləri konfrans haqqında ətraflı məlumat verib, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun tədbirin açılışındakı çıxışından fikirləri diqqətə çatdırıb.

Məlumatlar "Azərbaycanın Baş naziri Novruz Məmmədov: Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir", "Azərbaycan Ermənistanın kirli üzünü ortaya çıxardı" və s. sərlövhələrlə təqdim olunub.

Ölkənin aparıcı televiziya kanalları və qəzetlərinin internet saytlarında (www.cnnturk.com, www.ntv.com.tr, www.star.com.tr, www.aksam.com.tr, www.yeniakit.com.tr və s.) yer alan məlumatlarda türkdilli oxucuların diqqətinə çatdırılır ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon artıq 25 ildən çoxdur Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılır. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.


CNN TÜRK SON DAKİKA TV PROGRAMLARI CANLI YAYIN VİDEO FOTO HABER YAZARLAR
"Ermənistan, işgal altındaki toprakları uyuşturucu için kullanıyor"


AZƏRTAC

*Rokuelle Herron:*

# Məqsədimiz gəncləri narkotiklərdən istifadənin fəsadları barədə daha çox məlumatlandırmaqdır

**Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın (İDEC) "Tələbatın Azaldılması Təhsil Proqramı" kimi proqramlarının həyata keçirilməsində əsas məqsəd gəncləri narkotiklərdən istifadənin təhlükəli fəsadları barədə daha çox məlumatlandırmaqdır.**

Bu fikri AZƏRTAC-a müsahibəsində Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin San-Dieqo şəhərində fəaliyyət göstərən əməkdaşı, İDEC Konfransının "Tələbatın Azaldılması Təhsil Proqramı"nın təşkilatçısı Rokuelle Herron deyib.

Rokuelle Herron bildirib ki, o, ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasında bu sahədə 30 illik təcrübəyə malikdir. Bakıda Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə "Mən öz gələcəyimi seçirəm" mövzusunda keçirdiyi mühazirənin sayca 540-cı təqdimat olduğunu və indiyədək təxminən 95 min şagird və tələbə qarşısında çıxış etdiyini deyən Rokuelle Herron qeyd edib ki, azərbaycanlı gənclərin qarşısında təqdimatla çıxış etməsindən məmnundur.

Təqdimatın məqsədi barədə danışan amerikalı mütəxəssis diqqətə çatdırıb ki, tədbirin əsas hədəflərindən biri narkotiklərdən qeyri-qanuni istifadə ilə bağlı ABŞ-da olan problemlər barədə azərbaycanlı şagird və tələbələri məlumatlandırmaqdır: "Narkotiklərdən qeyri-qanuni istifadə bütün dünyada yayılmış bir problemdir və ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası dünyada bu sahədə müvafiq iş aparır".

Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın əhəmiyyətini xüsusi vurğulayan Rokuelle Herron deyib ki, tədbir narkotiklərlə mübarizə sahəsində ölkələr arasında təcrübə mübadiləsinin aparılması və bu təhlükəyə qarşı birgə əməkdaşlığın inkişaf etdirilməsi baxımından çox önəmlidir. Rokuelle Herron bildirib ki, o, həmin konfrans çərçivəsində ABŞ Ədliyyə Departamentinin



Narkotiklərlə Mübarizə Administrasiyasının dəvəti ilə ekspert kimi Azərbaycana gəlib. ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası narkotiklərlə mübarizə üzrə fəaliyyətini təkcə narkotik vasitələrin satışı ilə məşğul olanların həbs edilməsi ilə məhdudlaşdırmır, həmçinin təşkilat tərəfindən gəncləri narkotiklərdən uzaq durmağa təşviq etmək məqsədilə bu cür maarifləndirmə seminarları keçirilir. O, Azərbaycanın ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının belə proqramı həyata keçirdiyi 10-cu ölkə olduğunu vurğulayıb.

AZƏRTAC

# Xalq yazıçısı Elmira Axundovanın ulu öndər Heydər Əliyev haqqında üçcildliyinin Ankarada təqdimatı olub





**Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundovanın ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında türk dilində nəşr olunmuş "Heydər Əliyev: Şəxsiyyət və zaman", "Heydər Əliyev: Kremldə beş il" və "Heydər Əliyev: Qayıdış" üçcildliyinin aprelin 16-da Ankara şəhərində təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkiyəni təmsil edən rəsmi şəxslər, deputatlar, tanınmış ziyalılar, elm və mədəniyyət xadimləri, qardaş ölkə ictimaiyyətinin nüfuzlu simaları, Ankarada təhsil alan azərbaycanlı tələbələr və kursantlar təqdimatda iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Sonra ümummilli lider Heydər Əliyevin, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirin iştirakçılarını salamlayan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim ümummilli lider Heydər Əliyevin zəngin və mənalı həyat yolunu əks etdirən nəşrlərin əhəmiyyətindən danışıb. Səfir əminliklə qeyd edib ki, bu kitablar qardaş Türkiyədə geniş oxucu kütləsi tərəfindən seviləcək.

Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin ucalığı, Azərbaycan xalqı qarşısındakı xilaskarlıq missiyası, həyata keçirdiyi layihələrin təkcə Azərbaycan və Türkiyə üçün deyil, Avrasiyanı əhatə edən böyük bir coğrafiyada ölkələrin inkişafına və xalqların rifahına göstərdiyi təsir barədə ətraflı məlumat verən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, təqdim olunan üçcildlik Ulu Öndərimizin zəngin həyat və fəaliyyətini əks etdirən ən dəyərli nəşrlərdəndir. Kitablarda əksini tapan faktların, arxiv sənədlərinin rəvan yazı üslubunda qələmə alınmasının nəşrlərə böyük dəyər gətirdiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: "Oxuculara təqdim olunan kitabların ən böyük dəyəri ondadır ki, əsərlər tarixi xilaskarlıq missiyası ilə xalqın əbədi məhəbbətini qazanan Heydər Əliyev şəxsiyyətini tərənnüm edir. Digər qiymətli amil isə budur ki, bu kitablar məhz yüksək intellekti və dünyagörüşü olan tanınmış yazıçı Elmira Axundova tərəfindən qələmə alınıb".

Əli Həsənov bildirib ki, Heydər Əliyev türk dünyasının dahi şəxsiyyətləri arasında layiqli yer tutan liderdir. Ulu Öndərin söylədiyi "Biz bir millət, iki dövlətik" və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!" kəlamları bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri əsasında özünü tam şəkildə doğruldur. Təqdim olunan əsərlərin xarici dillərə tərcüməsi tarixi əhəmiyyət daşıyır. Üççildliyin Türkiyə oxucularına çatdırılmasının ən böyük önəmi budur ki, Heydər Əliyev Azərbaycanda olduğu qədər də qardaş ölkədə sevilir və məhəbbətlə yad olunur. Türkiyə oxucuları bu əsərlər vasitəsilə Heydər Əliyev şəxsiyyəti barədə daha mükəmməl informasiyalar əldə edə biləcəklər.

Çıxışında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin dinamikasından və iki dost ölkənin inkişafında böyük xidmətləri olan Heydər Əliyev şəxsiyyətinin ucalığından danışan Türkiyə xarici işlər nazirinin müavini Səlim Yavuz Kıran vurğulayıb ki, Ulu Öndərin qurduğu dövlət Azərbaycan xalqına əmanətdir. Bu əmanətin qorunması Azərbaycan üçün olduğu qədər, Türkiyə üçün də əhəmiyyət daşıyır. Xalq yazıçısı Elmira Axundovanı təqdim olunan əsərlər münasibətilə təbrik edən nazir müavini əminliklə vurğulayıb ki, təqdim olunan kitablar Türkiyədə böyük oxucu rəğbəti qazanacaq.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Azərbaycanda əldə olunan tarixi nailiyyətlərdən bəhs edən Milli Məclisin səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov vurğulayıb ki, ölkəmiz müstəqilliyinin ilk illərində parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Heydər Əliyev xalqın birliyinə arxalanaraq ölkəmizi xilas edib, dövlətimizin gələcək inkişafını təmin edib. Elmira Axundova gərgin bir zəhmət hesabına ərsəyə gətirdiyi əsərləri ilə Ulu Öndərimizin şərəfli ömür yoluna işıq salır.

Heydər Əliyevin yüksək insani keyfiyyətlərindən, öz xalqı qarşısında gördüyü nəhəng işlərdən danışan Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım böyük şairimiz Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsini sovet dönəmində həyata keçirilməsi çox çətin olan bir iş kimi dəyərləndirdi. Ulu Öndərimizlə bağlı xoş xatirələrini danışan Şamil Ayrım Heydər Əliyevin Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürk qədər vətənpərvər və cəsarətli bir şəxsiyyət olduğunu bildirib. Azərbaycanın qısa zamanda bütün sahələrdə inkişaf etdiyini, böyük kadr potensialı yaratdığını vurğulayan deputat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər kəsi fəal olmağa çağırıb. O, Türkiyəyə qarşı saxta "erməni soyqırımı" iddialarını kəskin şəkildə qınayıb. Əminliklə ifadə edib ki, təqdim olunan əsərlər Türkiyədə kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan və Türkiyə üçün həyati əhəmiyyət kəsb edən nəhəng layihələrini tarixi missiya kimi dəyərləndirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Necdət Ünüvar təqdim olunan əsərlərin böyük zəhmət və sevgi ilə ərsəyə gətirildiyini qeyd edib. O deyib ki, kitablar tarixin əsl daşıyıcısıdır. Bu əsərlər müasir Azərbaycan tarixinin Heydər Əliyev dövrünü tərənnüm edir.

Əsərlərinin yüksək səviyyədə təqdimatına görə, təşkilatçılara və iştirakçılara minnətdarlığını ifadə edən Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundova ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşərək deyib. "Əsərin iki qəhrəmanı var: Heydər Əliyev və zaman" fikri ilə oxucuların alqışlarını qazanan yazıçı çıxışını bu sözlərlə tamamlayıb: "Üççildliyin ön sözünün müəllifi görkəmli qazax yazıçısı Oljas Süleymenov deyib ki, bu kitabları yazdıran məhəbbətdir. Mən həqiqətən də qəhrəmanımı sevirəm və istəyirəm ki, üççildliklə tanışlıqdan sonra sizin qəlbinizdə də böyük Heydər Əliyevə eyni duyğular kök salsın".

Qeyd edək ki, türkdilli oxuculara təqdim olunan üççildlik roman-tədqiqat ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə münasibətlər, Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərindəki, Prezidentin şəxsi arxivindəki sənədlər əsasında yazılıb. Böyük zəhmətlə ərsəyə gələn əsər Azərbaycanda və onun hüdudlarından kənarda oxucular arasında geniş əks-səda doğurub. Roman-tədqiqat yüksək peşəkar səviyyədə yazılıb və Azərbaycan xalqının dahi oğlunun həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir.

Üççildlik "TEAS Press" Nəşriyyat evi tərəfindən çap olunub. Əsərləri türk dilinə Azad Ağaoğlu tərcümə edib.

Sonda yazıçı Elmira Axundova kitablarını öz imzası ilə tədbir iştirakçılarına təqdim edib.






AZƏRTAC

## Milli Məclisin nümayəndə heyəti Sankt-Peterburqda səfərdə olacaq

**Aprelin 17-də Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) tədbirlərində iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfər edəcək.**

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Əli Hüseynli, deputatlardan Xanlar Fətiyev, Adil Əliyev, Rasim Musabəyov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Sankt-Peterburqun Tavriya sarayında keçiriləcək MDB PA-nın Şura iclasında təşkilati məsələlərlə yanaşı, quruma üzv ölkələrdə seçkilərin keçirilməsinin müşahidəsinin təşkili, Moldova və Ermənistanda keçirilmiş seçkilərdə beynəlxalq müşahidəçilərin iştirakı, 1941-1945-ci illər müharibəsində qələbənin 75 illiyinə hazırlıq, antiterror fəaliyyətinin hüquqi təminatı və digər məsələlər müzakirə olunacaq.

MDB PA-nın 49-cu plenar iclasının gündəliyinə "İpoteka, vəkil və vəkillik fəaliyyəti" haqqında, "Məhkəmə-ekspert fəaliyyəti", Vergi Məcəlləsi haqqında model qanun layihələrinin müzakirəsi və s. məsələlər daxil edilib.

Burada beynəlxalq terrorizmə qarşı mübarizəyə dair konfransın keçirilməsi də nəzərdə tutulub.

Nümayəndə heyətimizin üzvləri MDB PA-nın daimi komitələrində plenar iclasda müzakirəyə çıxarılması nəzərdə tutulan məsələlər barədə öz fikirlərini bölüşəcək, qeyd və təkliflərini verəcəklər.

Milli Məclisin sədri Oqtay Əsədovun səfər çərçivəsində MDB PA-nın tədbirlərində iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Səfər aprelin 19-da başa çatacaq.

AZƏRTAC

*Almaniya jurnalı:*

# Azərbaycan iqtisadiyyatı inkişaf edir

**Almaniyanın Federal İqtisadiyyat və Energetika Nazirliyi (BMWİ) tərəfindən maliyyələşdirilən Menecer Təlimi Proqramı (MTP) ilə bağlı olan "Fit for partnership with Germany" adlı jurnalın 13-cü sayı dərc olunub.**

AZƏRTAC xəbər verir ki, nəşrin Azərbaycan üzrə bölməsində "Xəzər dənizində kiçik və orta biznesin (KOB) təşviqi" adlı məlumat yerləşdirilib.

Məlumatda bildirilir ki, Azərbaycan iqtisadiyyatı yüksələn xətlə inkişaf edir. Ölkə ümumi daxili məhsulunu 2020-ci ilədək əhəmiyyətli dərəcədə artırmaq niyyətindədir. KOB-un bu artımda payı 15 faiz olacaq. Azərbaycan Hökuməti KOB-u xüsusilə təşviq edir və bu məqsədlə müvafiq agentlik yaradılıb.

Qeyd edilir ki, Azərbaycan böyük neft və təbii qaz ehtiyatlarına malikdir. Həmin mineral resurslar ölkəni nəzərəçarpacaq gəlirlə təmin edir. İqtisadiyyatın şaxələndirilməsini təşviq etmək məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilib. Bu konsepsiya ilə Azərbaycan neft və təbii qazdan asılı olmamağı hədəf seçib. Qeyri-neft sektoru üçün bu inkişaf proqramı müxtəlif biznes sahələrinə əhəmiyyətli imkanlar təklif edir. Əsas diqqət kənd təsərrüfatına, eləcə də emaledici, qida və tikinti sənayelərinə yetirilir. Eyni zamanda, bərpa olunan enerji və enerji səmərəliliyi sahələri dəstəklənir. Su təchizatı və kanalizasiya, o cümlədən tullantıların idarə olunması layihələri reallaşdırılır. Bütün bunlar alman şirkətləri üçün çoxsaylı əməkdaşlıq imkanları təklif edir. Konsepsiya Azərbaycandakı KOB-a diqqət yetirir və ona daha güclü dəstəyin göstərilməsi məqsədilə 2018-ci ildə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi təsis olunub.

Diqqətə çatdırılır ki, orta miqyaslı müəssisələrin məsul işçiləri 2009-cu ildən etibarən MTP-də iştirak edirlər. 2015-2018-ci illərdə MTP-də iştirak etmiş azərbaycanlıların üçdə ikisi ortamiqyaslı müəssisələrdən olublar. Almaniyada əldə olunmuş "nou-hau" vasitəsilə iştirakçılar həm ölkələrinin iqtisadi artımını gücləndirir, həm də Azərbaycan ilə Almaniya arasında ticari münasibətləri genişləndirirlər.

Bildirilir ki, MTP Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verir. Proqramın həyata keçirilməsindən etibarən 1000-dən çox alman işgüzar şəxs firmalarda olub, "B2B" tədbirlər, yaxud ticarət sərgiləri vasitəsilə azərbaycanlı sahibkarlarla tanış olmaq imkanı əldə edib. Bu xüsusda, MTP alman iqtisadiyyatının Azərbaycanla və regionla münasibətlərinin mühüm vasitəçisidir.

Vurğulanır ki, 2018-ci ildə Almaniya Azərbaycanın əsas təchizatçısı qismində dördüncü yerdə olub. Xam neft Almaniyanın Azərbaycandan idxalının 90 faizindən çoxunu təşkil edir. Almaniya Azərbaycanı əsasən avadanlıqlar, nəqliyyat vasitələri və onların komponentləri, eləcə də kimyəvi məhsullar ilə təchiz edir. 2019-cu ilin yayında Bakı şəhərində MTP-nin Azərbaycandakı tərəfdaşları BMWİ və Almaniyanın Beynəlxalq İnkişaf Cəmiyyəti (GİZ) ilə birlikdə Azərbaycanın proqrama daxil edilməsinin 10-cu ildönümü qeyd olunacaq.

AZƏRTAC

# Çoxmənzilli binalarla bağlı Fərmanın icrası istiqamətində görülmüş işlər barədə növbəti müşavirə keçirilib



**Aprelin 16-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli Fərmanının icrası ilə bağlı görülmüş işlərin, habelə qarşıya çıxan problemlərin müzakirəsi mövzusunda müşavirə keçirilib.**

FHN-dən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Əsədov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, "Azərenerji" ASC-nin prezidenti Balababa Rzayev, "Azərsu" ASC-nin sədrinin birinci müavini Teyyub Cabbarov, "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev, "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov, Nazirlər Kabinetinin kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev, Azərbaycan Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, FHN-in aidiyyəti rəhbər şəxsləri iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Əsədov dövlətimizin başçısının 2019-cu il fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanın əhəmiyyətindən danışıb.

Ə.Əsədov xüsusilə vurğulayıb ki, vətəndaşlar tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanmış çoxsaylı müraciətlərə cavab olaraq, dövlətimizin başçısı növbəti dəfə humanizm nümayiş etdirərək imzaladığı bu Fərmanla yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha sübut etdi. Fərmanın əsas məqsədi insanların normal yaşayışının təmin edilməsidir. Bu mühüm sənəddən irəli gələn məsələlərin icrası ilə bağlı görülən işlər dövlətimizin başçısının nəzarəti altındadır.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə böyük humanistlik göstərərək uzun müddət istismarda olan, lakin müvafiq dövlət orqanları tərəfindən istismara qəbul olunmayan çoxmənzilli yaşayış binalarının istismara qəbulunun sadələşdirilməsi ilə bağlı Fərman imzalayıb. Fərmanın imzalanmasının Prezident İlham Əliyevin xalqımızın sosial rifahının daha da yüksəldilməsi istiqamətində atdığı növbəti mühüm addım adlandıran nazir bu il martın 14-də keçirilmiş ilk müşavirəni xatırladaraq bildirib ki, ötən müddətdə aidiyyəti qurumlar tərəfindən lazımi işlər görülüb. Bu proses fasiləsiz davam etdirilir.

K.Heydərov vurğulayıb ki, hazırda respublika üzrə istismara qəbul olunmamış çoxmənzilli yaşayış binalarının sayı 434-dür. Bunun 381-i paytaxt Bakıdadır.

FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin binasında müvafiq qurumların səlahiyyətli nümayəndələrinin iştirakı ilə qərargah yaradıldığını xatırladan nazir deyib ki, bu il aprelin 15-dək qərargahda 227 yaşayış binasının (kompleksinin) nümayəndələri qəbul edilib, onlara zəruri izahatlar verilib. Binalarda müayinə işlərinin yekunlaşdığını, bunun əsasında aşkarlanan çatışmazlıqlarla bağlı görüləsi işlərin tez bir zamanda müəyyən olunacağını bildirən nazir deyib ki, 14 binaya dair sənədlər komplektləşdirilib. Bu binaların istismara hazır olması barədə müvafiq qaydada rəy tərtib edilib və aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunub. Nazir işlərin Fərmanla müəyyən olunmuş müddətdə həyata keçirilməsinin və aşkarlanan çatışmazlıqların operativ surətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Müşavirədə digər qurumların rəhbərləri ötən müddətdə görülmüş işlər və qarşıda duran vəzifələr barədə çıxış ediblər.

Sonra Fərmanın icrasından irəli gələn məsələlər geniş müzakirə edilib, mövcud problemlərin həlli yolları barədə fikir mübadiləsi aparılıb, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**AZƏRTAC**

# Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib



**Aprelin 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib.**

Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə müdirləri və departament direktorları iştirak ediblər.

Əvvəlcədən qəbula yazılmış vətəndaşlar Dövlət Komitəsinin sədri tərəfindən fərdi qaydada qəbul ediliblər. Onların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, status və digər məsələlərlə bağlı olub.

Məlumat verilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar məsələləri sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, maddi rifah halının yüksəldilməsi daim diqqət mərkəzindədir. Bu məqsədlə yaşayış binalarının tikintisi davam etdirilir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva müharibədən zərər çəkən insanların, o cümlədən məcburi köçkünlərin daim qayğısına qalır, onların mənzil, təhsil, sağlamlıq problemlərinin həlli üçün mühüm işlər görür.

Dövlət Komitəsində qəbulda olan vətəndaşların qaldırdıqları məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə öz həllini tapacaq.

**AZƏRTAC**

# Füzuli və Şirvan Apellyasiya məhkəmələrinin nümayəndələri hərbi hissələrdə görüşlər keçiriblər



**Müdafiə Nazirliyinin 2019-cu il üçün tədbirlər planına əsasən, Füzuli və Şirvan Apellyasiya məhkəmələrinin nümayəndələri cəbhəboyu zonadakı hərbi hissələrdə görüşlər keçiriblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə qarşılıqlı münasibətlərin nizamnamənin tələblərinə uyğun qurulması, cinayətkarlığa qarşı mübarizədə məhkəmənin hökm və qərarlarının rolunun artırılması, hərbi qulluqçular tərəfindən hərbi xidmət əleyhinə olan və digər cinayətlərin törədilməsinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin görülməsi barədə şəxsi heyətlə söhbətlər aparılıb.

Sonda şəxsi heyəti maraqlandıran sualları cavablandıran qonaqlar bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

**AZƏRTAC**

# Elina Hacıyevanın oxuduğu məktəbin direktoru barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib

**Bakı şəhəri Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci (r) sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq davam etdirilir.**

Bakı Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, aparılmış istintaqla həmin məktəbin direktoru işləmiş Sevinc Abbasova xidməti vəzifələrini lazımi qaydada yerinə yetirməyib, vaxtaşırı olaraq özünə qapanan Elina Hacıyevanın ruhi-emosional vəziyyətinə xüsusi həssaslıqla yanaşmamaqla, ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd münasibətinin ehtiyatsızlıqdan onun ölümünə səbəb olmasına, habelə hadisə baş verdikdən dərhal sonra təcili-tibbi yardım çağırılmasını vaxtında təmin etməyərək E.Hacıyevanı təhlükədə qoymasına dair əsaslı şübhələr müəyyən edilib.

Sevinc Abbasova aprelin 15-də Cinayət Məcəlləsinin 143-cü (təhlükədə qoyma) və 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2019-cu il 16 aprel tarixli qərarı ilə S.Abbasova barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Hərbi Məhkəmə orqanlarının rəhbər heyəti sərhədçilərlə görüşdü





**Dövlət Sərhəd Xidmətində hərbi qulluqçuların vətənpərvərlik ruhunda tərbiyə olunması, ölkəmizdə qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin təbliği ilə bağlı mütəmadi olaraq tədbirlər həyata keçirilir.**

Bu tədbirlər çərçivəsində 2019-cu il aprelin 15-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Lənkəran sərhəd dəstəsində Hərbi Məhkəmə orqanlarının rəhbər heyətinin şəxsi heyətlə görüşü keçirilmişdir.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şirvan Apellyasiya Məhkəməsinin Hərbi Kollegiyasının sədri Rauf Cəfərovun və Cəlilabad Hərbi Məhkəməsinin sədri Vüqar Əhmədovun iştirakı ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ardıcıl olaraq həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamızda əmin-amanlığın, ictimai-siyasi sabitliyin əldə olunmasından, qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində görülən işlərdən və Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini mühafizə etməyə qadir olan bir quruma çevrilməsi barədə qürur hissi ilə danışılmışdır.

Tədbirdə cinayət hadisələrinin qarşısının alınması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması nəticəsində hansı ağır nəticələrə səbəb olması, onların aradan qaldırılması üzrə profilaktik işin aparılması istiqamətində hərbi qulluqçulara müvafiq tövsiyələr verilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Avropa Olimpiya Gənclər Festivalının məşəli Azərbaycana ötürüldü

**İtaliyanın paytaxtı Roma şəhərində bizim eranın 9-cu əsrində Dostluq və Qardaşlıq simvolu olaraq İmperator Avqusto tərəfindən tikilmiş Ara Pasis Muzeyində 2019-cu il 20-28 iyul tarixlərində Bakıda keçiriləcək Avropa Olimpiya Gənclər Festivalınının məşəlinin yandırılma və Azərbaycana ötürülmə, eyni zamanda, oyunların simvolu olan Zeytun ağacının Azərbaycana təqdim edilmə mərasimləri baş tutdu.**

Tədbirdə Azərbaycanı Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Azad Rəhimov, MOK baş katibinin müavini Azər Əliyev və Avropa Olimpiya Gənclər Festivalına məsul digər rəsmilər təmsil edirdilər.

Proqrama əsasən ilk olaraq media nümayəndələri üçün nazir Azad Rəhimov, MOK vitse-prezidenti Çingiz Hüseynzadə, AOK-un prezidenti Janez Koçijançiç, AOK Koordinasiya Komissiyasının sədri Corce Vizaski, İtaliya Olimpiya Komitəsinin prezidenti Ciovanni Malaqonun iştirakı ilə mətbuat konfranası keçirildi.

Müxtəlif media qurumlarının iştirakı ilə baş tutan mətbuat konfransında Bakıda iyul ayında gerçəkləşəcək 15-ci Avropa Olimpiya Gənclər Festivalına hazırlıq prosesi, görülmüş işlər və nəzərdə tutulan planlarla bağlı suallar verilib.

Media nümayəndələrinin diqqətinə çatdırılıb ki, Azərbaycan bundan öncə bir sıra mötəbər tədbirlərə ev sahibliyi etmiş və kifayət qədər yüksək təcrübəyə malik bir ölkədir. Bildirildi ki, 15-ci Avropa Olimpiya Gənclər Festivalı 21 aprel tarixindən Bakıda start götürəcək və oyunlar üçün yeni idman arenaları tikilməyəcək. İdmançılar 12 idman qurğusunda 10 idman növündə mübarizə aparacaqlar. Bundan öncə bir sıra mötəbər tədbirlərə ev sahibliyi etmiş Crystal Hall bu il açılış mərasinin keçiriləcəyi məkan olacaq. Eyni zamanda, media nümayəndələrinə Avropa Olimpiya Gənclər Festivalının loqosu, daşıdığı məna, bununla yanaşı, maskotlar: cırtdan və Qafqaz bəbiri haqda da məlumat verildi. Artıq könüllülərin seçiminin bitdiyi, onlar üçün təlimlərin başlanıldığı, 3600 könüllünün yarışlara cəlb olunduğu və oyunlara hazırlıqla bağlı digər məqamlar diqqətə çatdırıldı.

AOK-un prezidenti Janez Koçijançiç Azərbaycanın bu oyunlara çox yüksək səviyyədə hazırlaşdığını və Avropa Olimpiya Gənclər Festivalının möhtəşəm şəkildə gerçəkləşəcəyinə əminliyini bildirdi.

Daha sonra tədbirin rəsmi açılış mərasiminə start verildi. Çıxış edən gənclər və idman naziri Azad Rəhimov məhz bu gündən etibarən yarışlara 100 gün qaldığı müddətdə tədbirin qədim Romanın dostluq və sülh rəmzlərini özündə daşıyan tarixi Ara Pasis Muzeyində gerçəkləşməsinin xüsusi məna daşıdığını diqqətə çatdırdı. Nazir Azad Rəhimov 2018-ci ilin may ayında ölkə başçısı cənab İlham Əliyevin imzaladığı Sərəncam əsasında "Bakı 2019" Təşkilat Komitəsinin yaradıldığını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Çıxışının davamında nazir Bakının 15-ci Avropa Gənclər Olimpiya Festivalına hazırlıqları barədə məlumat verib, bundan öncəki illərdə ölkəmizdə keçirilmiş mötəbər idman tədbirləri haqda da qısaca söz açıb.

Proqramın davamı olaraq, sülhün rəmzi olan Zeytun ağacı AOK-un rəsmiləri tərəfindən Azərbaycan nümayəndə heyətinə təqdimat edilib.

Bununla yanaşı, təqdimat mərasimində Fərid Mansurov (yunan-Roma güləşi. Olimpiya çempionu 2004, Dünya çempionu 2007, 2009), cüdoçu Kəramət Hüseynov (2017, U23 Avropa çempionatı bürünc medal və 2018. Böyüklər arasında Avropa kuboku, bürünc medal) və voleybolçu Raziyə Əliyeva (2018, Yeniyetmələr arasında Voleybol çempionatı, qızıl medal) iştirak ediblər.

Daha çox, nəsillərin məşəli bir-birinə ötürməsi kimi xarakterizə olunan mərasimdə Fərid Mansurov məşəli Yanez Kojancicə, o isə gənc Raziyə Əliyevaya təqdim etdi.

Əlavə olaraq bildirək ki, Romaya səfəri çərçivəsində nazir Azad Rəhimov Mədəniyyət üzrə Pontifik Şurasının sədri Kardinal Gianfranko Ravasi ilə görüşüb. Görüş çərçivəsində Vatikan tərəfindən tezliklə yaradılacaq İdman Assosiasiyası "Atletiko Vatican" ilə əməkdaşlığın qurulması, Pontifikin Mədəniyyət Şurasının Gənclər Təşkilatı, Pontifikin Mədəniyyət Şurasının nəzdində fəaliyyət göstərən Ərəb və İslam Sivilizasiyasının tədqiqi İnstitutu ilə Azərbaycanın müvafiq elm və təhsil sahəsində əməkdaşlığının təşkili, hər iki ölkənin gənc arxeoloqlarının təcrübə mübadiləsi proqramlarının qurulması məsələləri müzakirə olundu.

**Səmayə MƏMMƏDOVA,**
**Gənclər və İdman Nazirliyinin mətbuat katibi.**

# "Turan Drilling & Engineering" şirkəti BP ilə Azərbaycanda 500 milyon ABŞ dolları dəyərində müqavilə bağlayıb

**Bu gün KCA Deutag və SOCAR AQŞ şirkətlərinin birgə müəssisəsi olan "Turan Drilling & Engineering" MMC "BP Exploration (Caspian Sea) Limited" (BP) şirkəti ilə ilk müqavilənin bağlanmasını elan edib.**

İmzalanan müqavilənin təxmini dəyəri razılaşdırılmış müddət üzrə 500 milyon ABŞ dolları və müqavilə müddətinin uzadılması imkanları da nəzərə alınmaqla 700 milyon ABŞ dolları məbləğindədir. Müqavilə, Hasilatın Pay Bölgüsü Sazişinin müddəalarına əsasən, BP şirkətinin Xəzər dənizindəki 7 stasionar özülündə qazma qurğularının idarə edilməsi və onlara texniki xidmətin göstərilməsini nəzərdə tutur. Müqavilənin əhatə dairəsinə "Şərqi Azəri", ''Qərbi Azəri'', ''Mərkəzi Azəri'', dərinsulu "Günəşli", habelə "Qərbi Çıraq", "Çıraq" və "Şahdəniz" yataqlarındakı dəniz özülləri üzrə qazma qurğuları daxildir. Müqavilənin ilkin müddəti beş ildir və iki dəfə bir il müddətinə artırıla bilər.

2018-ci ilin iyul ayında təsis olunmuş "Turan Drilling and Engineering" KCA Deutag və SOCAR AQŞ şirkətlərinin birgə müəssisəsidir. Birgə müəssisə, özündə qazma və mühəndis-layihələndirmə işlərinin yerinə yetirilməsi sahəsində dünyanın aparıcı podratçılarından sayılan KCA Deutag şirkətinin səriştəsini habelə, SOCAR AQŞ-nin Xəzər regionunda qabaqcıl təcrübəsini və infrastrukturunu birləşdirir.

"Turan Drilling and Engineering" birgə müəssisəsinin əsas səhmdarı olan SOCAR AQŞ MMC-nin Baş direktoru Ramin İsayev qeyd etmişdir ki, SOCAR AQŞ Xəzər regionunda inteqrə olunmuş qazma və quyu xidmətləri sahəsində özünü təsdiq etmiş və etibarlı infrastruktura malik olan aparıcı müəssisədir. "Biz çox şadıq ki, birgə müəssisəmiz olan "Turan Drilling and Engineering" şirkəti öz inkişafının vacib mərhələsi sayılan bugünkü müqavilənin imzalanmasına nail olmuşdur. Bu müqavilənin bağlanılması birgə müəssisəmizin ən yüksək sənaye standartlarını tətbiq etməklə kompleks layihələrin həyata keçirilməsi sahəsində texniki imkanlarının və potensialının müştəri tərəfindən tanınmasına dəlalət edir. Yerli şirkət olaraq "Turan Drilling and Engineering" birgə müəssisəsi təsisçi şirkətlərin mövcud infrastrukturu, təcrübəsi və resursları kimi amillərin birləşdirilməsi sayəsində xərclərin optimallaşdırılmasını təmin etmək baxımından əlverişli mövqeyə malikdir. Bu gün imzalanan müqavilə Azərbaycanda yerli kadr potensialının və ümumiyyətlə, qazma sənayesinin və onunla əlaqəli xidmət sahələrinin inkişafına töhfə verəcək".






Bugünkü xəbəri şərh edən KCA Deutag şirkətinin Baş direktoru Nori Makkey bildirib ki, KCA Deutag artıq uzun illərdir ki, Xəzər hövzəsində çalışır. ''Biz şadıq ki, BP "Turan Drilling and Engineering" şirkəti ilə böyük əhəmiyyətə malik müqaviləni imzalamaqla Azərbaycanda yaratdığımız bu birgə müəssisənin potensialına inamını nümayiş etdirdi.

Xəzər regionunda quruda və dənizdə qazma və mühəndis-layihələndirmə xidmətlər bazarı öz dinamik inkişafını davam etdirir və biz əminik ki, yerli müəssisə olaraq regionda mövcud olmağımız strateji mövqeyimizi gücləndirməklə yeni fürsətlərdən yararlanmağımıza imkan verir".

**SOCAR-AQŞ-in İctimaiyyətlə Əlaqələr şöbəsi.**

# Akademik Ramiz Mehdiyevin alimlərimizi milli tarixin öyrənilməsində yeni axtarışlara səfərbər edən əsəri

**Ölkənin tanınmış tarixçi, ədəbiyyatşünas və mətnşünas alimlərinin iştirakı ilə aprelin 16-da Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən elmi sessiya akademik Ramiz Mehdiyevin yenicə çapdan çıxmış "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsinə həsr edilmişdi. "Şərq-Qərb" nəşriyyatında buraxılmış bu əsərin qısa müddətdə ölkənin elmi və ictimai-siyasi həyatında geniş əks-səda doğurması, ilk növbədə, kitabda qaldırılan problemlərin aktuallığı, yüzillər əvvəl baş verən hadisələri təhlil etsə də, bu gün üçün son dərəcə gərəkliliyi ilə bağlıdır.**

AZƏRTAC xəbər verir ki, elmi sessiyanın açılışındakı nitqini bu mülahizələrlə başlayan muzeyin direktoru, akademik Rafael Hüseynov "Akademik Ramiz Mehdiyevin araşdırmalarında milli düşüncə, milli tarix və milli inkişaf məsələlərinə yeni baxış" adlı məruzəsini təqdim etdi. Bildirildi ki, bu yeni kitab əslində akademik Ramiz Mehdiyevin son bir neçə ildə nəşr edilən və Azərbaycan tarixşünaslığında əsl hadisə sayılan silsilə əsərlərinin davamı və ayrılmaz tərkib hissəsidir. Müəllifin hələ əsas mövzuya keçmədən öncə irəli sürdüyü və Azərbaycan tarixşünaslığının vəzifələri ilə əlaqədar mülahizələrinə toxunan Rafael Hüseynov qeyd etdi ki, hər bir dəyərli elmi əsərin qiymətini müəyyənləşdirən ilk cəhət onun yalnız hansısa suallara cavab verməsi deyil, həm də hansı mühüm sualları qaldırması, yeni axtarışlar üçün üfüqlər aça bilməsidir. Bu mənada akademik Ramiz Mehdiyevin yeni araşdırmasının müqəddiməsində qaldırdığı problemlər Azərbaycan tarixşünaslığının gələcək inkişafı üçün proqram səciyyəsi daşıyır. Məruzəsinə davam edən akademik Rafael Hüseynov dedi: "Görkəmli alim milli tariximizi tədqiq etməyi heç də yalnız keçmişdə baş vermiş hadisələri araşdırmaq kimi qavramamağı tövsiyə edərək, hər belə araşdırmada həm də bugünümüzü və sabahımızı görməyi ən doğru yol sayır, tarix elmini arxada qalmış zamanları müasir dövr və maraqlarla birləşdirən körpü adlandırır. Lakin bizim keçmişimizi öyrənmək sahəsində uğurlarımız nə səviyyədədir? Ötmüş onillərdə ilk mənbələr əsasında tariximizin qaranlıq səhifələrinə aydınlıq gətirən bir silsilə monoqrafiyalar yazılsa da, kompleks araşdırmalar yerinə yetirilsə də, təəssüf ki, onların əksəriyyəti sovet dövründə ortaya çıxmış əsərlərdir. Həmin dövrün siyasi şərtləri isə heç də bütün həqiqətləri olduğu kimi ifadə etmək, hətta tarixi mənbələri tam halda nəşr etmək imkanı vermirdi. Müstəqillik dövrünün açdığı imkanlar yalnız ölkəmizdə deyil, xaricdə saxlanan mənbələri və əlyazma irsini də araşdırmalara cəlb etmək fürsətinin yaranması tarixçi alimlərimizə geniş fəaliyyət sahəsi təklif edir. Lakin akademik Ramiz Mehdiyevin haqlı olaraq vurğuladığı kimi, tarixçilərimizin böyük əksəriyyəti yazılarını artıq hazır, tərcümə və tədqiq edilmiş əsərlər üzərində qurmaqdan uzağa getmir, nəticədə bir çox ümdə suallara cavabların tapılması da qəlizləşir. Həmin səbəbdən də akademik Ramiz Mehdiyev tarix elmimiz qarşısında təxirə salmadan həll edilməli bir neçə ciddi vəzifə qoyur. İlk növbədə, mənbəşünaslığın inkişafına nail olmaq, tariximizə aid müxtəlif dillərdə qələmə alınmış məxəzlərin tərcüməsi və nəşri işini sistemə salmaq; ikincisi, ölkəmizdən kənarlarda, Rusiyanın, İranın, Türkiyənin, Avropa dövlətlərinin kitabxana və fondlarında, arxivlərində saxlanılan mənbələri əhatəli şəkildə müəyyənləşdirərək tədqiqata cəlb etmək; üçüncüsü, tədqiqatlarda yeni yanaşma və təhlil modellərinin tətbiqinə nail olmaq, köhnə stereotiplərdən qurtulmaq; dördüncüsü, milli varlığımız, milli keçmişimizlə bağlı əsərlərin hamı üçün maraq kəsb etdiyini nəzərə alaraq tədqiqat mövzularını qarşılıqlı müqayisə və müzakirələr əsasında müəyyənləşdirmək və digər bu qəbil icrası vacib olan şərtlər.

Məruzəçi bu məsələyə də xüsusi diqqət yönəltdi ki, akademik Ramiz Mehdiyevin milli təfəkkür, milli tarix, milli dövlətçilik, milli inkişafla bağlı araşdırmalarını digər peşəkar tarixçilərimizin əsərlərindən fərqləndirən bir mühüm keyfiyyət göstəricisi də ondan ibarətdir ki, o, güclü alim olmaqla yanaşı, həm də təcrübəli, müdrik dövlət xadimidir. Toxunduğu istənilən problemi həm də ümummilli kontekstdə nəzərdən keçirir, araşdırmalarının praktik faydası, gələcək tərəqqimizdə və daha düzgün yollar seçə bilməyimizdəki təsirlərini də nəzərə alır.

Elmi sessiyada "Sənədlərin tariximizin xanlıqlar dövrü haqqında söylədiyi həqiqətlər" adlı məruzə ilə çıxış edən tarix elmləri doktoru, professor Kamil İbrahimov bildirdi ki, tarix buraxılmış səhvləri, yaxud məsuliyyətsizliyi heç vaxt bağışlamır. Akademik Ramiz Mehdiyev təxminən yarım əsrlik bir zaman kəsiyini əhatə edən xanlıqlar dövrünə, feodal hərc-mərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən və nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövrə layiqli siyasi qiymət verib. Akademikin bu kitabında çoxsaylı mənbə, elmi ədəbiyyat əsasında yazılmış, həmçinin xarici dillərdə nəşr olunmuş mənbələrdəki bir sıra təkzibolunmaz faktlara istinad edilmişdir. Vaxtilə dahi Albert Eynşteyn yazırdı ki, tarix siyasətdən kənar olan zaman riyaziyyat qədər dəqiq, fizika qədər qərəzsiz elmdir. Tarixi qərəzsiz edən onun altında yatan arxiv sənədləri olur. Ramiz Mehdiyev bu toplunun tərtibatında həm bir tarixçi, həm də bir siyasətçi kimi çıxış edib. Eyni zamanda, Azərbaycanın çoxsaylı tarixçilərinə meydan verərək qeyd edib ki, ölkəmizdən kənarda arxiv sənədləri ilə bağlı hansı çətinliklər varsa, həmin çətinlikləri də aradan qaldırmağa dövlət hazırdır.

Bildirildi ki, müəllif iki strateji məqam üzərində ayrıca dayanır. Birinci məqam ondan ibarətdir ki, xanlıqlar dönəmində Azərbaycan dövlətçiliyi Səfəvilər dövründən etibarən yaradılan, Nadir şahın hakimiyyəti illərində isə bir qədər möhkəmləndirilən mərkəzləşmə prinsipindən məhrum olur. İkinci məqam isə xalqımızın məhz həmin siyasi dövrün səhvləri ucbatından ikiyə bölünməsi və bu günə qədər də parçalanmış vəziyyətdə yaşamağa davam etməsi ilə bağlıdır.

Akademik Ramiz Mehdiyevin Qacarlar xanədanının həm etnik, həm də siyasi genotipi barədəki mötəbər mənbələrə, konkret faktlara əsaslanan qənaətləri, metodoloji mahiyyəti olduqca mükəmməl milli tarixşünaslıq dərsləridir. O yazır ki, "Qacarlar heç zaman azərbaycanlı maarifçilərin ana dilində məktəb açmaq təşəbbüslərinə mane olmamış, bu ideya uğrunda mübarizə aparanlara qarşı heç vaxt dövlət səviyyəsində hər hansı bir təqib həyata keçirməmişlər".

Kitabda verilən faktlar göstərir ki, ana dilində müasir, dünyəvi təhsil ideyasını həyata keçirmək istəyənlər daha çox yeniliklərə, tərəqqiyə, müasirliyə qənim kəsilən mühafizəkar, xurafatçı ruhanilərin müqaviməti ilə qarşılaşmış, onlar tərəfindən təzyiqlərə məruz qalmışlar. Bu cür hallar o dövrdə təkcə Qacarlar dövləti üçün deyil, bütün İslam dünyası, o cümlədən Qafqaz Azərbaycanı üçün də xarakterik idi.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin komparativistika və bədii tərcümə şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli "Azərbaycanın siyasi tarixinə xanlıqlar dövrünün təsiri" adlı məruzəsini məxəzlərin tarixin öyrənilməsində müstəsna əhəmiyyəti haqqında düşüncələrini bölüşməklə başlayaraq bildirdi ki, zamanın sükutunu pozan, onu dinləndirən dastanlar, bayatılar, nəğmələr və digər bədii örnəklər və musiqi əsərləri, tədqiqatlar vardır. Bunlara zaman-zaman bəzən müəyyən əlavələr edilir, ixtisarlar olur, bəzən də onlar müəyyən təhrifə məruz qalır, hətta bəzən ünvanları belə dəyişə bilir. Amma bu səssiz zamanla bağlı sənədlər də mövcud olur ki, onları təhrif etməyə, üzərində dəyişiklik aparmağa heç kəsin gücü çatmır. Bəzən gizli qalan, insan gözündən yayınan, tarixi həqiqətləri əks etdirən bu sənədlər üzə çıxdıqda müəyyən zaman kəsiyi, tarixi dövr barəsində çox söz deyə bilir. Unudulmağa, təhrifə zamanın gücü çatmayan belə sənədlər və onların obyektiv dəyərləndirilməsi akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında yer alıb. Ana dilimizdə təqdim olunan bu kitabda Azərbaycan tarixində təzadlı, mübahisəli məqamlarla bağlı olan xanlıqlar dövrünə aid 22 yeni, indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi-tarixi sənəd öz əksini tapmışdır. Həmin sənədlər əsasən, Rusiya-İran müharibələri dövründə Qacar və Rusiya hərbi komandanlığı ilə bağlı siyasi-tarixi mənbələrdir. Təqdim olunan tarixi sənədlər xanlıqlar dövrünün siyasi mənzərəsini bir daha işıqlandıraraq, həmin dövrün daha dərindən təhlili, yeni yanaşma üçün elmi mənbələrə, arxiv sənədlərinə, təkzibedilməz faktlara əsaslanan möhkəm bir zəmin yaradır.

Qeyd edildi ki, akademik Ramiz Mehdiyevin bu əsəri sayəsində ilk dəfə olaraq oxucu Azərbaycanın xanlıqlar dövrünə yeni bir müstəvidə nəzər salmaq imkanı əldə edir. Həmçinin kitabda indiyədək qapalı qalmış bir sıra tarixi məqamlara obyektiv münasibət ortaya qoyulur, çar Rusiyası tərəfindən Şimali Azərbaycan xanlıqlarının işğalı, Gülüstan və Türkmənçay müqavilələri ilə bağlı təfərrüatlar, xanlıqlar dövründəki siyasi səhvlərin acınacaqlı nəticələri açıqlanır. Müəllif belə bir qənaətə gəlir ki, hakimiyyət və taxt-tac naminə çarizmlə müttəfiqlik münasibətlərinə gedən Azərbaycan xanlarının hamısının sonu bir qanunauyğunluq kimi faciəli olub. Müəllif fikrini davam etdirərək, İbrahim xanın və ailəsinin qətlini, Səlim xanın, Mustafa xanın Azərbaycandan didərgin düşməsini xatırladır, oxucunu bunlar üzərində düşünməyə sövq edir.

Fars dili üzrə mütəxəssis olan məruzəçi kitabda dərc edilmiş sənədlərin farsca orijinallarını və tərcümələrini tutuşdurduğunu bildirdi, məhz tarixi məxəzlərin belə dəqiq tərcümə və şərhlərlə təqdim edilməsinin elmimizə fayda verəcəyini vurğulayaraq, tarixçilərimiz, mənbəşünaslarımız tərəfindən örnək, model olaraq götürülməsini məsləhət gördü. Qeyd olundu ki, qiymətli tarixi və siyasi sənədlər olan məktubların təqdimatında xronoloji ardıcıllıqla yanaşı, bədii, məntiqi bir keçid də hiss olunmaqdadır. Bu da müəllifin güclü məntiqi-fəlsəfi ümumiləşdirmə məharətindən, fərdi üslubunun rəvanlığından, ifadə seçiminin düzgün və sadəliyindən xəbər verərək, materialı daha da oxunaqlı edir. Xanlıqlar dövrünün ətraflı tədqiqi, maraqlı ümumiləşdirmələr, mülahizələr, düzgün siyasi təhlil bu mövzu ilə maraqlananlar üçün təkzibedilməz tarixi faktlara əsaslanan yeni bir elmi zəmin yaradır. Vurğulandı ki, akademik Ramiz Mehdiyevin tariximizin bəzi mübahisəli səhifələrinə analitik təhlillə açıqlama gətirən, milli ictimai şüurun inkişafı üçün əhəmiyyət kəsb edən yeni kitabı yalnız tarixçi alimlər üçün deyil, filosoflar, ədəbiyyatşünaslar, mədəniyyətşünaslar və ümumən,



hər bir azərbaycanlı üçün dəyərli tarixi-elmi mənbədir. Bu fundamental tədqiqata müraciət edən hər bir şəxs keçmiş irsimizi olduğu kimi, uğursuzluqlar və qələbələrlə birlikdə öyrənmək imkanı əldə edir. Kitab neçə-neçə yeni tədqiqatlara, araşdırmalara, tarixi romanlara, film ssenarilərinə cığır açır.

Fikirlərini yekunlaşdıran professor Ş.Əlibəyli söylədi ki, akademik Ramiz Mehdiyevin aşağıdakı fikrini kitabın leytmotivi hesab etmək olar: "Tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur". Əminik ki, xalqımız bir daha belə amansızlıqla üz-üzə durmaz.

Elmi sessiyada "Tarixi sənədlərin milli keçmişimiz kontekstində yeni oxunuş zəruriliyi" mövzusunda məruzə ilə çıxış edən filologiya elmləri doktoru, professor, muzeyin elmi inkişaf və tədris layihələri şöbəsinin müdiri Kamil Allahyarov qeyd etdi ki, akademik Ramiz Mehdiyevin bu əsəri Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli hadisələrlə, əks mövqeləri ifadə edən fikirlərlə dolu bir dövrünə həsr olunub. Həmin dövrdə, yəni XVIII əsrin sonu - XIX əsrin başlanğıcında Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox gərgin idi. Kitabın birinci fəslində qeyd edildiyi kimi, əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz xanlıqları ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri boşa çıxdı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi vəziyyətinin geriliyi, digər tərəfdən isə xarici istilalar, İranın və çar Rusiyasının bu yerləri ələ keçirmək üçün Azərbaycana yürüşləri əngəl törədirdi. Ayrı-ayrı xanlıqların hakimlərinin öz şəxsi mənafelərindən əl çəkməməsi, öz xanlığını qoruyub saxlamaq naminə bir-birinə güzəştə getməməsi də bu işə əsaslı surətdə mane oldu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş şahlıq İranının və çar Rusiyasının işğalçı planlarına qarşı dura biləcək vahid qüvvə yox idi. Hələ I Pyotr dövründə başlanmış, II Yekaterina zamanı davam etdirilmiş Azərbaycanı ələ keçirmək cəhdlərindən sonra XIX yüzilliyin lap başlanğıcında çar Rusiyası bütün Cənubi Qafqazı tutmaq planlarını həyata keçirməyə hazırlaşırdı. Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsinə sovet dövründə belə qiymət verilirdi ki, guya bu aktın müsbət tərəfləri də olmuşdur. Ancaq akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, Azərbaycanın şimal torpaqlarının çar Rusiyası tərəfindən ələ keçirilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirdi.

Akademik Ramiz Mehdiyevin araşdırmalarında, xüsusən də Şah İsmayıla, Səfəvilər xanədanına həsr edilmiş tədqiqlərində mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda tarixi şəxsiyyətlərimizin aparmış olduğu mübarizələrə ayrıca diqqət yetirilir. Bu kitabda da akademik Ramiz Mehdiyevin həmin xəttə sadiq qaldığına və oxucusuna məhz həmin həqiqətin millətimizin inkişafındakı ən əhəmiyyətli məqam olduğunu aşılamasına şahid oluruq. Əsər və tədqiqata cəlb edilmiş mənbələr göstərilir ki, hələ XVIII əsrin ikinci yarısından, yəni Nadir şahın qətlindən sonra yaranan Azərbaycan xanlıqları arasında vahid iqtisadi və siyasi mərkəz yox idi, ayrı-ayrı xanlıqlar isə qapalı həyat sürürdü. Azərbaycanın bütün xanlıqlarının siyasi tarixi arasıkəsilməz müharibələr və qanlı saray çevrilişləri ilə dolu idi. Bir-biri ilə rəqabət aparan xanlıqlar arasındakı müharibələr onları daha da zəiflədir və xarici qüvvələr qarşısında müqavimətlərini azaldırdı. XVIII əsrin 80-ci illərinin ortalarında İranda hakimiyyətə gələn Ağa Məhəmməd Qacar Azərbaycan xanlıqlarını yenidən birləşdirmək qərarına gəldi. Bununla əlaqədar o, bütün Cənubi Qafqaz xanlarına fərmanlar göndərərək onlardan itaət əmri olaraq övladlarını girov kimi onun yanına göndərilməsini tələb edirdi. Ancaq Azərbaycan xanlarının əksəriyyəti və gürcü hakimi II İrakli bu fərmanları qəbul etməkdən imtina etdilər. Bununla əlaqədar 1795-ci ildə Ağa Məhəmməd xan böyük qoşunla Cənubi Qafqaz hüdudlarına üz tutdu. O, talış, Naxçıvan və İrəvan xanlıqlarını özünə tabe edəndən sonra Şuşa qalasına, daha sonra isə Tiflisə üz tutdu. Gürcüstanda Qacar Tiflisi tutandan sonra qarət və qırğınlar törətdi. Bundan sonra gürcülər ruslara müraciət edərək onların himayəsinə keçmək istədiklərini bildirdilər və beləliklə də rus qoşunlarının Cənubi Qafqaza yolu açıldı. Akademik Ramiz Mehdiyev tərəfindən Azərbaycan tarixşünaslığında yeni dövriyyəyə buraxılan sənədlər də məhz birinci Rusiya-İran müharibəsi ərəfəsindəki, müharibənin gedişindəki və ondan sonrakı dövrü əhatə edir və indiyədək qaranlıq qalan bir çox məsələlərə aydınlıq gətirir.

Bu da vurğulandı ki, kitabda yer almış 22 məktubun və fərmanın mətnindən gələcəkdə başqa tədqiqatçılar da faydalana bilər. Akademik Ramiz Mehdiyevin kitabda vurğuladığı əsas niyyətlərindən biri də elə odur ki, bu və bu qəbil sənədlər təzədən, ayrı gözlə oxunsun, onlara indiyədək verilmiş ənənəvi qiymətləndirmələrdən fərqli, milli maraqlara daha çox cavab verən yozumlar təqdim edilsin.

Elmi sessiyada maraqla qarşılanan, müzakirə edilən kitabın müfəssəl təhlilini verən "Akademik Ramiz Mehdiyevin araşdırmalarında tarixi həqiqətlərin alt qatını görmək və dəyərləndirmək ustalığı" adlı məruzəsində tarix elmləri doktoru, professor Solmaz Tohidi-Rüstəmova qeyd etdi ki, kitab "Xanlıqlar dövrü və onun Azərbaycanın siyasi tarixinə təsirləri" adlı tədqiqat ilə başlayır və alınan ilkin nəticə, başlığından da göründüyü kimi, bu tarixin, ilk növbədə, Azərbaycan dövlətçiliyi mövqeyindən, yəni sırf siyasi konsepsiya əsasında yazılmasıdır. Bu tədqiqat müəllifin mövqeyi, dövrün tarixi hadisələrinə yanaşma və qiymətləndirmə baxımından Azərbaycan tarixşünaslığında bu dövrə dair indiyədək mövcud olan konseptual yanaşmadan əsaslı surətdə fərqlənir. Bu məsələ üzərində ətraflı dayanmadan daha 2 mühüm məqamı çox qısa şəkildə izah edək. Məlumdur ki, müstəqilliyə qədər Azərbaycan tarixşünaslığında xanlıqlar dövrü əsasən tarixçilik və ideoloji yanaşma mövqeyindən tədqiq edilib və qiymətləndirilib. Yəni, İran dövlətində Nadir şah Əfşarın ölümündən sonra mərkəzdənqaçma qüvvələrinin canlanmasının ilkin şərtləri və xanlıqların yaranmasının tarixi-siyasi və iqtisadi şərtləri araşdırılıb. Azərbaycan xanlıqlarının istər ümumi və istərsə də ayrı-ayrılıqda tarixinin həmin dövrün ziddiyyətli, feodal dağınıqlığı, xanlıqlar arasında hakimiyyət çəkişmələri və müharibələri ilə səciyyəvi olduğu vurğulanıb. Bununla belə, ümumilikdə, xanlıqlar dövrü Azərbaycan ərazilərinin bilavasitə İrandan ayrılması prosesinin başlanması, xanlıqların ilk yarımüstəqil, kiçik Azərbaycan dövlətçiliyinin əsasını qoyması kimi xarakterizə olunub, eləcə də Azərbaycan-türk xalqının formalaşması tarixinin də bu zamandan başlanması hesab edilib. Sovet dövründə ayrı-ayrı xanlıqların Rusiya hakim dairələri ilə münasibətləri müəyyən mənada obyektiv işıqlandırılsa da, ümumən Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olması tezisi əsas götürülüb. Lakin 1990-cı illərdən sonra tanınmış tarixçilərin əsərlərində artıq bu məsələyə münasibət dərhal dəyişib, bir sıra mənbələr, o cümlədən xanların Rusiya təmsilçiləri ilə məktubları dərc olunub, dövrün tarixinin elmi baxımdan obyektiv işıqlandırılması cəhdləri edilib və xanlıqlar dövrü bir daha Azərbaycan müstəqil dövlətçiliyinə gətirən bir zaman kəsiyi kimi təqdim olunub. Akademik Ramiz Mehdiyevin adı çəkilən kitabında bu məsələlərdə bir qədər fərqli mövqe ortaya qoyulur. Bu mövqe, ilk növbədə, müəllifin əvvəlki kitablarından - Şah İsmayıl Səfəvi və Nadir şah Əfşara həsr edilmiş əsərlərində irəli sürülən Azərbaycan dövlətçiliyi konsepsiyasının artıq XVIII əsrə tətbiqi və bu mövzunun davamı məqsədindən irəli gəlir. Məhz bu konsepsiyaya söykənərək müəllif Azərbaycan xanlarını vahid dövlət prinsipini pozmaqda və mərkəzdənqaçma proseslərində yaxından iştirak etməkdə, feodal hərc-mərcliyi, hakimiyyət uğrunda ara müharibələri, bu səbəbdən birləşə bilməməkdə, düşmən istilasının qarşısını almamaqda, eləcə də erməni əhalisinin Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsinə imkan verməkdə tənqid edir.

Azərbaycan xanlarının Rusiyaya meyil etməsi, bu zaman Kürəkçay müqaviləsini imzalanmış Qarabağ xanı İbrahimxəlilin və rus zabiti Sisianovla son döyüşə girmiş Gəncə hakimi Cavad xanın fərqli, lakin eyni dərəcədə faciəli aqibəti də həmin mövqedən qiymətləndirilir.

Bu iki əsas mövzudan əlavə, kitaba müəllif məqaləsində daha bir mövzu xətti ayrıca qeyd edilməlidir. Bu da Qacarlar dövrünün Azərbaycan tarixşünaslığında və ədəbiyyatında işıqlandırılmasıdır. Müəllif bu sahədə görülən işləri yuxarıda göstərilən konseptual mövqedən çıxış edərək ümumən mənfi və qeyri-qənaətbəxş qiymətləndirir.

Elmi sessiyanın iştirakçılarına daha bir məruzəni Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin mədəni irs və mənbəşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Xatirə Başirli təqdim etdi. O, "Azərbaycan xanlıqları siyasi tarix müstəvisində" adlı məruzəsində bu cəhətə ayrıca diqqət yönəltdi ki, akademik Ramiz Mehdiyevin ədəbi, ictimai cameəyə təqdim etdiyi bu qiymətli əsər, heç şübhəsiz, tariximizin xanlıqlar dövrünün siyasi irsi, fəaliyyəti haqqında faktlara, mənbələrə söykənərək son illərdə yazılan ən dəyərli araşdırmadır.

Akademik Ramiz Mehdiyev xanlıqlar dövrünün səhvlərindən nəticələr çıxarmağa tövsiyə edir, həmin dövrü - xanlıqlar tarixini obyektiv, ədalətli tənqid etməkdən çəkinməməyə çağırır. Səfəvilər dövründən yaradılan, Nadir şahın hakimiyyəti illərində isə daha da möhkəmləndirilən mərkəzləşmə prinsipindən Azərbaycan xanları mənəmlik, satqınlıq ucbatından məhrum olurlar. Vaxtilə Səfəvi şahlarının, xüsusilə Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası, siyasi məharəti hesabına geniş coğrafiyanı əhatə edən, böyük nüfuza malik Azərbaycan türklərinin dövləti məhz xırda feodal hərc-mərcliyi, çar Rusiyasının müdaxiləsi nəticəsində ayrı-ayrı bölgələrə, qruplara, tayfalara parçalanır. Tarixi məlumatların təhlilindən birmənalı şəkildə aydın olur ki, çar Rusiyası ciddi-cəhdlə ermənilərin, gürcülərin, həmçinin Qarabağdakı Alban ruhanilərin əli ilə Cənubi Qafqazda, Səfəvi dövlətinin torpaqlarında xristian dövlətinin yaradılmasına çalışırdı. Xatirə Başirli kitabda diqqəti çəkən bir məqamı da xatırladaraq bildirdi ki, erməni dövlətinin yaradılması prosesinin kökləri, gedişi və fəsadları haqqında bir çox kitablar yazılsa da, proseslərin pərdəarxası ilə bağlı xeyli vacib məqamlar hələ də qaranlıq qalır. İctimai fikrimizdə belə bir yanlış baxış hökm sürür ki, Azərbaycan torpaqlarında erməni dövlətinin




yaradılması İkinci Rusiya-İran müharibəsindən sonra başlanan prosesdir. Ancaq tarixi mənbələri araşdıran akademik Ramiz Mehdiyev nəzərə çatdırır ki, çarizmin bu siyasi layihəsinin kökləri Səfəvilər dövlətinin qürub çağına qədər gedib çıxır. Nadir şahın qətlindən və xanlıqların yaranmasından sonra isə bu proses daha geniş vüsət alıb.

Kitabda müəllif, çarizmin Azərbaycan xanlarına qarşı apardığı xəyanətkar siyasətin qurbanı olan Qarabağ hakimi İbrahimxəlil xanın faciəli taleyindən xüsusilə söz açır, onun müasiri olan Azərbaycan xanlarının bu ibrətamiz hadisədən dərs götürmədiklərini təəssüflə qeyd edir.

Qacarların Azərbaycanın dövlətçilik və mədəniyyət tarixindəki yerinə, bu sülalənin yetişdirdiyi görkəmli siyasətçilərin, hərbçilərin, diplomatların, incəsənət xadimlərinin həyatına dair yeni materiallar da ilk dəfə akademik Ramiz Mehdiyevin bu kitabında təqdim edilmişdir. Elmi sessiyanın sonunda müzakirələrə yekun vuran akademik Rafael Hüseynov "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının bir məziyyəti üzərində də dayanaraq dedi: "Akademik Ramiz Mehdiyevin bu əsərinin başlıca özəlliklərindən biri də onun Azərbaycan mənbəşünaslığının yeni inkişaf istiqamətlərini müəyyənləşdirməsidir. Müəllif haqlı olaraq göstərir ki, tarixi reallıqlar haqqında elmi auditoriyaya obyektiv, dürüst biliklər çatdırmaq bir xidmətdirsə, bundan az əhəmiyyətli olmayan digər iş həmin həqiqətlərin geniş xalq kütlələrinə də çatdırılması üçün bədii əsərlərin, incəsənət nümunələrinin yaradılmasıdır. Akademik Ramiz Mehdiyevin bu qənaəti ilə razılaşmamaq mümkün deyil ki, bəzən dəyərli, səviyyəli bədii əsərlər sırf elmi tədqiqatlarla müqayisədə daha geniş ictimaiyyətə çatır, həm də güclü emosional təsirə malik olduğundan peşəsindən asılı olmayaraq hər bir insan üçün maraq kəsb edir. Zənnimcə, bu çox həssas bir məqamdır. Həqiqətən, bəzən ayrı-ayrı insanların tarixi hadisələr və şəxsiyyətlər haqda mövqeyi elə bədii əsərlərin məlumatı əsasında formalaşır. Ona görə də tarixi mövzuda yazan müəllifləri faktlara münasibətdə daha dəqiq olmağa, təhriflərə yol verməməyə dəvət edən akademik Ramiz Mehdiyev birbaşa milli mənafedən çıxış edir. Xanlıqlar dövrü tariximizlə bağlı müxtəlif dövrlərdə yaranmış sənət incilərini nümunə gətirərkən akademik Ramiz Mehdiyev Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" romanını, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsini, Səməd Vurğunun "Vaqif" dramını xatırladır, o əsərlərdə yaradıldıqları dövrün möhürünün olduğunu deyir. Amma başlıca məqsəd ondan ibarət olmalıdır ki, belə əsərlər dövrün siyasi yönəltmə və təzyiqlərindən uzaq qala bilsin, həqiqətləri əyməsin, oxucunu çaşdırmasın. Ona görə də xanlıqlar dövrünün bədii ədəbiyyatda, sənət nümunələrində doğru, həm də yüksək estetik səviyyədə əks etdirən yeni əsərlərin yaradılmasına böyük ehtiyac duyulur".

Akademik Rafael Hüseynov son olaraq bildirdi ki, müasir Azərbaycan dövlətçiliyinin tərəqqisində böyük xidmətləri olan, eyni zamanda, ölkəmizdə tarix elminin, cəmiyyətşünaslığın, fəlsəfi fikrin inkişafına məhsuldar yaradıcılığı, bir-birindən sanballı elmi əsərləri ilə əvəzsiz töhfələr verən akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" adlı yeni kitabı özlüyündə yüksək dəyər daşımaqdan savayı, başqa maraqlı tədqiqatlara da mötəbər zəmin yaradır.

**AZƏRTAC**

# ADPU-da "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı olub

**Aprelin 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyəti ilə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu vurğulayıb. Qeyd edib ki, "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malikdir. Akademik Ramiz Mehdiyevin elmi faktlara əsaslanan bu yeni kitabı zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmaq baxımından çox dəyərli tədqiqat əsəridir. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Əsər Azərbaycan tarixinin fəlsəfəsinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Kitab tarixi əsər olduğu dərəcədə də sosial-fəlsəfi əsər kimi öyrənilməlidir. Geniş və hərtərəfli elmi-tədqiqatlar nəticəsində ərsəyə gələn bu fundamental əsər xanlıqlar dövrümüzə yeni elmi və obyektiv baxışdır.

Rektor vurğulayıb ki, akademik Ramiz Mehdiyevin yeni kitabı tarixçi alimlər üçün yol xəritəsi də sayıla bilər. Görkəmli alim bu sahənin mütəxəssislərinə çağırış edərək yazır: "Tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur. Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəflərini və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır".

Professor Cəfər Cəfərov diqqətə çatdırıb ki, zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisə, dərin təhlillər əsasında yazılmış bu əsər tarixşünaslığımıza böyük töhfədir.

ADPU-nun türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Oktay Sultanov çıxışında bildirib ki, əsərin elmi, siyasi, fəlsəfi əhəmiyyəti böyükdür. Akademik Ramiz Mehdiyevin alim və vətəndaş mövqeyini əks etdirən "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixşünaslığımızda hadisədir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib, bir çox qaranlıq məqamlara aydınlıq gətirərək, onilliklər ərzində formalaşmış stereotipləri qırmağa çalışıb. Eyni zamanda, tarixşünaslığımızın həmin dövrlə bağlı aktual problemlərinə toxunaraq onların optimal həll yollarını göstərib.

Oktay Sultanov qeyd edib ki, sözügedən kitab Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir. Nəşrdə təqdim edilən, müvafiq şərh və izahlarla müşayiət olunan sənədlər xanlıqlar dövrünün real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycan gəncliyi bu əsəri dərindən mənimsəməlidir. Çünki əsərdə xanlıqlar dövrünün hadisələri müasir dövrlə əlaqələndirilir. Bu kitabı diqqətlə oxusaq və XX əsrin 90-cı illər Azərbaycan tarixinə nəzər salsaq tarixi hadisələrin səsləşdiyinin şahidi olarıq. Ancaq xanlıqlar dövründən fərqli olaraq 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru Asəf Zamanov, türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Mais Əmrahov, Azərbaycan tarixi kafedrasının müdiri, dosent Nailə Əhmədova çıxışlarında bildiriblər ki, akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin təqdim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına təkan verəcək.

Qeyd edək ki, kitab həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulur.

**AZƏRTAC**

# Alimin şəxsi kolleksiyasının təqdimatı keçirilib



**AMEA Mərkəzi Elmi Kitabxananın İctimaiyyətlə əlaqələr bölməsindən bildiriblər ki, Azərbaycanın görkəmli dilçi alimi, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Əlövsət Abdullayevin şəxsi kitab kolleksiyasının təqdimatı keçirilib. Təqdimat mərasimində alimin müasirləri, tələbələri, ailə üzvləri və media nümayəndələri iştirak ediblər.**

Tədbirdə çıxış edən MEK-in Kitabxana-xidmət şöbəsinin əməkdaşı Səda Əliyeva alimin şəxsi kitab kolleksiyası, həyat və fəaliyyəti haqqında ətraflı məlumat verərək qeyd etdi ki, professor Əlövsət Abdullayev Azərbaycan dilinin ən aktual problemləri üzrə 140-dan çox əsərin, o cümlədən 15-dən artıq tədris ədəbiyyatı və monoqrafiyanın müəllifidir.

Kolleksiya MEK-ə, alimin qızı, filologiya elmləri doktoru, BDU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri Sənubər Abdullayeva tərəfindən təqdim edilib. Professor Əlövsət Abdullayevin müəllifi olduğu əsərlərlə yanaşı, dilçilik elminin bütün bölmələrinə aid kitablar, müxtəlif dillərdə olan lüğətlər, ensiklopediyalar, digər sənədlər və alimin "Köməkçi nitq hissələri" metodik vəsaiti, "Müasir Azərbaycan dili, Sintaksis" dərsliyi, "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" monoqrafiyası, "Dil, Siyasət, Sosial tərəqqi", "Sintaksisin aktual məsələləri", "Azərbaycan dili məsələləri" və s. kitabları və Azərbaycan dilçiliyinə əsərləri MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil edilib.

Daha sonra professor Əlövsət Abdullayevin qardaşı, professor Əlikram Abdullayev, qızı Sənubər Abdullayeva, oğlu Tofiq Abdullayev, dilçi alimin tələbəsi olmuş BDU-nun dosenti İsmayıl Məmmədov, professorlar Tofiq Hacıyev, Rəhilə Quliyeva, Fikrət Əlizadə və digər qonaqlar çıxış edərək, alimin həyatı və yaradıcılığı ilə bağlı xatirələrini bölüşüb və onu Azərbaycanda dilçi alimlərin yetişməsində xidməti olmuş şəxsiyyət kimi xarakterizə ediblər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# TANINMIŞ KARTOQRAF ALİM-PEDAQOQ

**Kartoqrafiya Yer elmləri sırasında xüsusi əhəmiyyətə malik olan bir elm sahəsidir. Bunun sübutu kimi təkcə onu xatırlatmaq kifayətdir ki, xəritə olmadan Yerin fiziki səthində heç bir layihənin, fəaliyyətin yerinə yetirilməsi təcrübi olaraq mümkün deyildir. Xəritənin yaradıcısı isə kartoqrafdır və bu ixtisasa yiyələnmək də kifayət qədər çətindir. Çünki kartoqraf qəlbən saf, təbiətsevər, rəssam təxəyyüllü, səbirli, daima öz üzərində çalışmağı bacaran insan olmalıdır. Kartoqraf peşəsi həm şərəfli, həm çətin, həm də məsuliyyətlidir. Ona görə də respublikamızda bu peşəyə azsaylı mütəxəssislər yiyələnə bilmişlər. Bunlardan biri də Bakı Dövlət Universitetinin geodeziya və kartoqrafiya kafedrasının dosenti, coğrafiya fakültəsinin dekan müavini Ramiz Mirağa oğlu Əhlimanovdur.**

O, 1949-cu il aprelin 17-də Şamaxı şəhərində anadan olmuşdur. 1966-cı ildə Şamaxı şəhər 1 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) geologiya-coğrafiya fakültəsinə qəbul olub. Tələbəlik illərində R.Əhlimanov müvəffəqiyyət göstəriciləri, ictimai-siyasi həyatdakı aktivliyi və elmə maraqlarına görə öz həmyaşıdlarından həmişə fərqlənmişdir. Məhz onun xüsusiyyətləri həmin illərdə coğrafiya fakültəsində mühazirələr aparan akademik Həsən Əliyevin diqqətindən yayınmışdı. Ona görə də 1971-ci ildə universiteti əla qiymətlərlə başa vurduqdan sonra o, akademik Həsən Əliyevin məsləhəti və İmtahan komissiyasının qərarı ilə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda "kartoqrafiya" ixtisası üzrə aspiranturaya qəbul olundu. Aspirantura təhsilini başa vuran R.Əhlimanov 1980-ci ildə coğrafiya elmləri doktoru, professor Rizvan Piriyevin rəhbərliyi ilə "Landşaftların kartoqrafik-riyazi metodlarla tədqiqi (Azərbaycan Respublikası ərazisi timsalında)" mövzusunda dissertasiya işini müdafiə edərək coğrafiya elmləri namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür. Onun dissertasiya işində təbii ərazi kompleksinin və onun komponentlərinin kəmiyyət cəhətdən qiymətləndirilməsi həyata keçirilmişdir.

Ramiz Əhlimanovun landşaft örtüyünün məkan strukturunun üfüqi parçalanmasını hesablamaq üçün ilk dəfə olaraq təklif etdiyi səmərəli düsturların metodiki MDB məkanında bütün mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və tətbiq olunur. Bu kimi məsələlərin həlli isə təbii ərazi kompleksinin səmərəli istifadə olunmasında böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, son illərdə ölkə iqtisadiyyatının vacib hissəsi olan kənd təsərrüfatına diqqət daha da artırılmışdır. Bu sahədə təsərrüfatların təşkil edilməsində, landşaft-torpaq ehtiyatlarının nəzərə alınmasında R.Əhlimanovun elmi işinin nəticələri, verdiyi tövsiyələr bu gün də çox faydalı ola bilər.

O, 80-dən çox elmi məqalənin, orta məktəblər üçün hazırlanmış kontur xəritələrinin, Azərbaycan Respublikasının Milli Atlasında yer almış və bütövlükdə respublika ərazisi üçün ilk dəfə olaraq tərtib edilmiş "Landşaft və bitki örtüyü" strukturunun törəmə morfometrik xəritələrin (parçalanma, müxtəliflik, mürəkkəblik, müvazinətsizlik və s.), həmçinin tədrisə dair çoxsaylı fənn proqramlarının müəllifidir. Alim bir sıra respublika və beynəlxalq səviyyəli elmi konfrans, simpoziumların iştirakçısı olmuş, elmi məruzələrlə çıxış etmişdir.

Ömrünün böyük hissəsini təhsilə, gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir desək, yanılmarıq. O, hələ aspirant olduğu illərdən başlayaraq elmi işlərlə yanaşı, Bakı Dövlət Universitetinin coğrafiya fakültəsində kartoqrafiya fənnindən saathesabı əsaslarla dərslər aparmışdır. Gənc olmasına baxmayaraq, onun auditoriyada özünü aparması, tələbələrlə ümumi dil tapmaq, ünsiyyət qurmaq bacarığı, tədris etdiyi fənlər üzrə hazırlıq səviyyəsi və əzmkarlığı, öz işinə məsuliyyətlə yanaşması Geodeziya və Kartoqrafiya kafedrasının müdiri tərəfindən müsbət qiymətləndirildi. 1990-cı ildə o, kafedraya baş müəllim vəzifəsinə dəvət olundu. Bununla Ramiz müəllimin həyat yolunda yeni mərhələ başladı və həmişəlik öz taleyini Bakı Dövlət Universitetinə, coğrafiya fakültəsinə bağlamış oldu.

Dosent R.Əhlimanov Kartoqrafiya, Xəritələrin layihələndirilməsi və tərtibi, Kartometriya və marfometriyanın əsasları, Kartoqrafik tədqiqat üsulları və s. fənlərdən tələbələrə yüksək səviyyədə mühazirə və məşğələ dərsləri tədris edir, kartoqrafik əsərlərin yaradılmasına dair nəzəri və praktiki biliklər çatdırır.

Ramiz müəllimin tələbələrlə ünsiyyət qurmaq bacarığı, xoş münasibəti, eləcə də yüksək təşkilatçılıq bacarığını görən BDU rəhbərliyi 1991-ci ildə ona etimad göstərərək coğrafiya fakültəsində tədris işləri üzrə dekan müavini vəzifəsini həvalə edib. Bu vəzifədə dos. R.Əhlimanov artıq 28 ildir ki, müvəffəqiyyətlə, qüsursuz çalışır və fakültənin professor-müəllim kollektivi arasında çox böyük hörmət və nüfuz sahibidir, tələbələrin isə sevimli müəllimi, tədrisdə yaranmış çətinliklərin aradan qaldırılmasında məsləhətçisi və güvənc yeridir. Ramiz müəllim Təhsil Nazirliyi, Bakı Dövlət Universitetinin rəhbərliyi tərəfindən dəfələrlə təşəkkürnamə və Fəxri fərmanlarla təltif olunmuşdur.

R.Əhlimanovun yuxarıda göstərilən ictimai-siyasi, elmi-pedaqoji keyfiyyətləri ilə



yanaşı, o, həyata gələndə Allah-taala tərəfindən onun üzərinə çox vacib bir missiya da qoyulmuşdur: öz doğmalarına, bacı və qardaşlarına arxa-dayaq olmaq, sonra özünün nümunəvi ailəsini quraraq övladlarını böyütmək, onlara təhsil vermək, ailələrinin qurulmasında qayğı göstərmək. Lakin bu missiya hələ tamamlanmamışdır, növbəti mərhələdə Ramiz müəllim öz nəvələrinin gələcəyinin təmin olunması haqqında, onların yaxşı təhsil alması, təlim-tərbiyəli, cəmiyyətimiz üçün faydalı şəxsiyyətlər kimi yetişməsi üçün çalışır. Böyük nəvəsi Elbəy artıq BDU-nun beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsidir. Bu ilin qış imtahan sessiyasını bütün fənlərdən əla qiymətlərlə başa vurmuşdur. Baba üçün bundan böyük sevinc olarmı?!

Son olaraq onu qeyd etmək lazımdır ki, R.Əhlimanovun həyat, əmək və yaradıcılıq yolu bir çoxları, xüsusilə də həyatda mövqe tutmağın yolunu axtaran gənclər üçün nümunə ola bilər.

Yetmiş illik yubileyiniz münasibətilə BDU-nun coğrafiya fakültəsi və kafedramızın professor-müəllim heyəti, eləcə də çoxsaylı tələbələrimiz adından sizi səmimi qəlbdən təbrik edir, sizə cansağlığı, elmi-pedaqoji yaradıcılığınızda uğurlar, böyük ailənizə əmin-amanlıq arzulayırıq.

**Məqsəd QOCAMANOV,**
**BDU-nun Geodeziya və kartoqrafiya kafedrasının müdiri, professor.**

# Nəsimi ədəbi-bədii gecəsi keçirildi



**Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə ölkə başçısı İlham Əliyevin 2019-cu il 11 yanvar tarixli sərəncamı ilə bu il ölkəmizdə "Nəsimi ili" elan edilib.**

Ümummilli liderin təşəbbüsü ilə ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilmişdir. Milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsi olan Nəsimi yaradıcılığının daha əhatəli araşdırılması istiqamətində bu gün bir çox mühüm işlər görülür. Prezident İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi bunun bariz nümunəsidir. Nəsiminin anadan olmasının 650 illik yubileyinin dövlət səviyyəsində təşkil edilməsi məqsədilə "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" ölkə başçısının müvafiq sərəncamı ilə Nazirlər Kabinetinə müvafiq tədbirlər planının həyata keçirilməsi çərçivəsində bütün sahələrdə olduğu kimi, ümumtəhsil müəssisələrində mütəmadi olaraq silsilə tədbirlər keçirilir. Belə tədbirlərdən biri də C.Cabbarlı adına 187 saylı tam orta məktəbdə keçirildi. Məktəbin VIII sinif şagirdlərinin hazırladıqları "Nəsimi ədəbi-bədii gecəsi" milli-mənəvi dəyərlərimizin təbliği baxımından xüsusi əhəmiyyətə malikdir. Gənc nəslin qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi yer tutan İmadəddin Nəsimi yaradıcılığına yaxından bələd olması onların mənəvi kamilləşməsində mühüm rol oynayır.

VIII "d" və VIII "e" sinif şagirdlərindən Rəna Abbaslı, Xədicə Səfərova, Günay Sadıqova, Əntiqə Möhbalıyeva, Ərşad Hacılı və s. dünya poeziyasının ən kamil nümunələri sırasında özünəməxsus yer tutan, əsərlərində daim insan əzəmətini, məhəbbətini və şəxsiyyət azadlığını tərənnüm edən şairin şeirlərindən nümunələr söylədilər. Tədbir iştirakçıları, məktəb rəhbərliyi şagirdlərin çıxışlarını alqışlarla qarşılamış, tədbirlə bağlı xoş təəssüratlarını bildirmişlər.

**M.ƏLİYEVA,**
**"Respublika".**

# TÜRK DÜNYASINA BÖYÜK HƏDİYYƏ

**Bu günlərdə bütün Türk Dünyasında ilk dəfə AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu alimlərinin səyi ilə "Türk dünyasının coğrafiyası və etnosu" adlı üç cildlik monoqrafiyanın birinci cildi - "Fiziki coğrafiya" adlı kitab çap edilmişdir. Kitabın yazılmasında Coğrafiya İnstitutu ilə yanaşı, AMEA Geologiya və Geofizika İnstitutunun, Bakı Dövlət Universitetinin, ET Hidrometeorologiya İnstitutunun coğrafiyaçı alimləri də iştirak etmişlər.**

Kitabın ideya müəllifi və məsləhətçisi AMEA-nın prezidenti, akademik Akif Əlizadə, elmi redaktorları akademik Ramiz Məmmədov və akademik Nizami Cəfərov, buraxılışa məsul dosent Məhərrəm Həsənovdur.

Ümumiyyətlə, **"Türk dünyasının coğrafiyası və etnosu"** əsərinin 3 cilddən ibarət olması nəzərdə tutulur. İkinci cild **"İqtisadi və sosial coğrafiya"**, üçüncü cild isə **"Regional coğrafiya"** olacaqdır.

Birinci cild 2 fəsildən ibarətdir. Birinci fəsil türk dünyasının mənəvi-siyasi mahiyyətinin aydınlaşdırılması məsələlərinə həsr edilmişdir. İlk növbədə türk etnosunun yaranması məsələsi araşdırılır və göstərilir ki, hər bir mükəmməl etnos onun mövcudluğu üçün zəruri təbii, iqtisadi və sosial-mədəni şərait yaranandа tarix səhnəsinə çıxır. Qeyd edilir ki, tarixin müəyyən dövrlərində ayrı-ayrı etnoslar arasında inteqrasiya prosesləri də gedə bilər. Türk etnosu bizim eradan əvvəl IV-III minilliklərdə, Altay etnosunun bir neçə min il davam edən differensiasiyası nəticəsində formalaşmış, türklərin monqollar və tunqus-mancurlarla ortaq əcdadı olan altayların Altay dağları ətəklərində yarandığı güman edilir. Kitabda orada indi də çoxlu sayda türk mənşəli xalqların öz ata-baba yurdlarında yaşadığı vurğulanır.

Burada qeyd edilir ki, müasir türk dünyası tarixi təkamülün, insan cəmiyyətinin müxtəlif dövrlərdən, mərhələlərdən keçən inkişafının məhsuludur və eyni zamanda böyük perspektivlərə də malikdir.

Kitabda Türk dünyasının coğrafi mövqeyi ayrıca tədqiq edilir. Göstərilir ki, Türk dünyası şimal və şərq yarımkürələrində yerləşməklə şərqdə Ordos yaylası, qərbdə Qara və Aralıq dənizləri sahilləri, Şimalda Şimal Buzlu okeanı sahilləri, cənubda Kuqlun dağları arasında olmaqla təqribən 11 milyon kvadratkilometr sahəni əhatə edir. Məlum olur ki, bu ölkələr subtropik, mülayim və subarktik iqlim qurşaqlarını əhatə etməklə çox müxtəlif və mürəkkəb təbii şəraitə malikdirlər.

Türk xalqları Alp-Himalay geosinklinal qurşağında, yeni seysmik cəhətdən fəal ərazidə, eləcə də qədim Şərqi Avropa, Çin, cavan Turan platformalarında məskunlaşmışlar. Bu ölkələr də milli qurumların Atlantik və Şimal Buzlu okeanlara geniş çıxışları vardır. Bu regionda cavan dağlarla yanaşı, qədim düzənliklər və yaylalar da geniş sahə tutur.

Əsərdə Türk dünyasının məzmun baxımından çox zəngin olan tarixi-coğrafi inkişafının keçdiyi yol araşdırılır, onun dünya tarixinə, mədəniyyətinə, mənəviyyatına, ədəbiyyatına təsiri qısa şəkildə təhlil olunur. Bu ərazilərin, xüsusən cənub-qərbi Asiyanın ilk insan məskənləri kimi seçiyyələndirilməsi əsərin ən mühüm xüsusiyyətlərindən biri və Türk dünyasının tanıdılması üçün mühüm elmi əsaslardandır. Bu bölgənin dünyada ən qədim əkinçilik və heyvandarlıq ocaqlarından olması da bu bölmədə sübut edilir.

Türk dünyasında coğrafi şəraitlə bağlı olaraq ən sıx məskunlaşmış ərazilər Orta Asiyada Amu Dərya və Sırdərya, Ön Asiyada Dəclə və Fərat, Qafqazda Kür və Araz çaylarının vadiləri olmuşdur ki, indi də həmin ərazilər intensiv istifadə edilən bölgələr kimi diqqəti cəlb edir. Əsərdə bu kimi məsələlərin də tədqiqinə xüsusi önəm verilir. Kitabın bu bölməsini oxuduqca sanki eramızdan bir neçə min ildən başlayaraq bu günümüzə qədər böyük bir dövr göz önündən keçir, bu ulu xalqın tarixdəki rolu çox parlaq şəkildə nəzərə çarpır.

Kitabın xüsusi əhəmiyyət kəsb edən bir bölməsində Türk dünyasının ümumi dəyərləri araşdırılır. Burada göstərilir ki, Türk dünyasının ən ümumi dəyərlərinə dil, din, mədəni-mənəvi birlik, sosial-iqtisadi, milli həmrəylik, adət-ənənə, ədəbiyyat, folklor birliyi, məkan yaxınlığı və s. aid etmək olar. Eyni zamanda, burada vurğulanır ki, türk xalqlarını birləşdirən əsas amil türkçülükdür. Onun əsas istiqamətləri isə, Z.Göyalpin göstərdiyi kimi dildə, estetikada, əxlaqda, hüquqda, dində, iqtisadiyyatda, siyasətdə, fəlsəfədə türkçülükdür. Qeyd edilir ki, "Orxon-Yenisey", "Kitabi Dədə Qorqud", "Manas", "Koroğlu" və başqa ədəbi abidələri özündə birləşdirən ümumtürk ortaq dəyərləri də vardır ki, bunlar türk xalqlarının birliyini daha da möhkəmləndirir.

Türk dünyasının landşaft olaraq Böyük çöl-Bozqır birləşdirir. Buradan da dünya mədəniyyətində və ədəbiyyatında özünəməxsus yeri olan Bozqır kültürü yaranmışdır. Burada dil faktoruna xüsusi önəm verilir və onun mühüm birləşdirici vasitə olduğu göstərilir. Kitabın bu bölmələrini oxuduqca, türk dünyasının əzəməti və vahidliyi haqqında fikirlər formalaşır və möhkəmlənir. Türk xalqları tarixin keşməkeşli dövrlərində özlərinin cəsurluqları, qəhrəmanlıqları, sosial qurumları, möhkəm daxili strukturları, güclü dünyagörüşü sistemləri ilə öz varlıqlarını qoruyub saxlamaqla yanaşı, həm də öz ətraflarına güclü təsir etməyi bacarmışlar.

Kitabda böyük bir bölmə Türk dünyasında coğrafi biliklərin inkişafına həsr edilib. Göstərilir ki, hələ ən qədim zamanlardan türk xalqları yaxşı örüş yerləri əldə etmək üçün Mərkəzi Asiya, Şərqi Avropa düzənliyi, Volqaboyu regionlarını öyrənmiş, onları heyvandarlıq baxımından qiymətləndirmiş və müvafiq formada istifadə etmişlər. Onlar daim yeni torpaqların məskunlaşdırılması ilə məşğul olmuşlar. Əsərdə məşhur türk səyyah və coğrafiyaçılarından Əl-Xorazminin, Əl-Biruninin, M.Kaşqarinin, M.Kolanktalinin, N.Tusinin, Ə.Bakuvinin, H.Z.Şirvaninin, M.Şahtaxlının və başqaları ilə yanaşı, müasir coğrafiyaçıların da coğrafiya elminə verdiyi töhfələr araşdırılır, sistemləşdirilir.

Əsərin ən əhəmiyyətli cəhətlərindən biri də burada ilk dəfə Türk dünyasının paralel toponimlərinin tədqiq edilməsidir. Türk xalqlarının hazırda yaşadıqları ərazilərdəki coğrafi toponimlərin identikliyinin göstərilməsi ilə yanaşı, Şimali və Cənubi Amerikada çoxlu sayda türk mənşəli toponimlərin olması da diqqətə çatdırılır. Paralel toponimləri müqayisəli şəkildə təhlil etdikdə məlum olur ki, xalqın etnik mənşəyi, məişəti, təsərrüfat fəaliyyəti və digər sahələri məhz coğrafi toponimlərdə öz əksini tapır.

Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə, Türkmənistan, Altay, Yakutiya ərazilərində toponimlərdə oxşar xüsusiyyətlər onların dil mənsubiyyətinin mənşə və mənasının müəyyənləşdirilməsində böyük rol oynayır və bu xalqların kökünün vahidliyini sübut edir.

Kitabın ikinci fəsli Türk dünyasının təbii şəraitinə və ehtiyatlarına həsr edilib. İlk növbədə ərazinin relyefi araşdırılır. Göstərilir ki, bu region oroqrafik vahidlər və relyef formalarının daxili və xarici mahiyyətini kəmiyyət və keyfiyyət baxımından seçiyyələndirən amillər çox müxtəlif və mürəkkəbdir. Buradakı qədim və cavan platformalar və eləcə də dağlar relyefin çox müxtəlifliyinə, ərazinin insanı cəlb etmək baxımından əvəzsiz olmasına gətirib çıxarır. Relyef bölməsini oxuyarkən insan qiyabi olsa da, bir anlıq geniş çöl-Bozqır ərazisinə səyahət edir, ata-babalarının keçdiyi həyat yolunu gözlə qarşısında canlandırır.

Türk dünyasının geoloji quruluşu da özünəməxsusluğu ilə diqqəti cəlb edir və kitabda bu bölmə həm elmi və həm də elmi-kütləvi səpkidə yazıldığına görə oxucuya geniş məlumat verir. Göstərilir ki, bu ərazilər geoloji-tektonik cəhətdən Kembriyə qədər, Paleozoy və Mezo-Kaynozoy qırışıqlığı vilayətlərindən təşkil edilmişdir ki, bunların da daxilində özünəməxsus geoloji-tektonik inkişafı ilə fərqlənən ayrı-ayrı struktur vahidləri ayrılır.

Məlum olduğu kimi, həm qədim, həm də cavan geoloji strukturların yayıldığı ərazilər müxtəlif faydalı qazıntılarla zəngin olur. Bu baxımdan Türk dünyası regionu yanacaq, filiz, qeyri filiz və hidromineral olmaqla çox müxtəlif faydalı qazıntı ehtiyatlarının beynəlxalq əhəmiyyət kəsb etdiyi göstərilir, onların hər biri ayrı-ayrılıqda səciyyələndirilir. Bu bölmənin ən mühüm cəhətlərindən biri odur ki, hər bir faydalı qazıntı növü, həm mütəxəssis və həm də Türk dünyası ilə maraqlanan hər bir oxucunu təmin edəcək dərəcədə yığcam, lakin çox dolğun şəkildə şərh olunmuşdur. Burada həm ölkələr, həm muxtar qurumlar üzrə faydalı qazıntılar təhlil edilir, onların istifadə imkanları, sənaye əhəmiyyəti, gələcəkdəki təminatı müddəti də təhlil edilir, lazımi təkliflər irəli sürülür.

Türk dünyası regionu iqlim baxımından da çox rəngarəng xüsusiyyətə malikdir. Kitabda ilk növbədə bu geniş ərazinin iqlim şəraitini formalaşdıran amillər nəzərdən keçirilir. Eyni zamanda, bu bölmədə ərazinin iqlim, aqroiqlim, fitoiqlim, bioiqlim ehtiyatları təhlil edilir, müasir iqlimşünaslıq baxımından qiymətləndirilir. Ümumi hissədə günəş radiasiyası, hava kütlələri, iqlimin formalaşmasında relyefin rolu kimi məsələlər də nəzərdən keçirilir. Əraziyə daxil olan hava kütlələrinin xüsusi xəritəsxemi işlənib hazırlanmışdır və buradan aydın olur ki, Türk dünyasının iqliminə şimal yarımkürəsinin Arktik, Mülayim və Tropik hava kütlələri təsir göstərir. Qeyd edilir ki, bu ərazilərin əksər hissəsində ilin dörd fəsli aydın nəzərə çarpır və bu da buranın iqlim ehtiyatları baxımından zənginliyinə səbəb olur. Əraziyə daxil olan hər bir hava kütləsinin yaratdığı şərait, atmosfer yağıntılarının miqdarını da aydınlaşdırır. Bu hissədə regionun ən rütubətli və quraq, ən isti və soyuq hissələri tədqiq edilir, iqlim dəyişmələrinin yarada biləcəyi fəsadlar və onlara qarşı adaptasiya tədbirləri göstərilir.

Bundan sonra Türk dünyasında yayılmış iqlim qurşaqları - subarktik, mülayim və subtropik qurşaqlar, onların yayıldığı ərazilər ətraflı təhlil edilir. Hər bir iqlim qurşağında günəşli saatların miqdarı, günəş radiasiyasının gərginliyi, havanın orta, maksimum və minimum temperaturları, atmosfer yağıntılarının miqdarı və rejimi tədqiq edilir. Bunların müvafiq cədvəl və qrafiklərlə müşayiət edilməsi kitabı daha da oxunaqlı edir.

Kitabın növbəti bölməsi daxili sulara həsr olunub və göstərilir ki, Türk dünyasının çayları Şimal Buzlu, Atlantik, Hind okeanları hövzəsinə və Aral-Xəzər daxili hövzəsinə aiddir. Burada ərazidən axan bütün çayların axım rejiminin formalaşmasına, gursululuq, azsululuq dövrlərinin təhlilinə, suvarmada istifadə edilən çayların su ehtiyatlarının, hər bir çayın hidroloji xüsusiyyətlərinin, hidroenerji ehtiyatlarının qiymətləndirilməsinə xüsusi yer ayrılır.

Türk dünyası ölkələrində xeyli miqdarda axarlı, axarsız, şor sulu, şirinsulu göllər vardır ki, kitabda bunların hər biri təhlil edilir, bütün hidroloji xüsusiyyətləri, mənşəyi, suyunun kimyəvi-fiziki tərkibi və s. haqqında geniş məlumat verilir. Türk dünyası regionunun şimal hissələrində, xüsusən Taymırda və Yakutiyada çox böyük ərazi bataqlıqlar və bataqlaşmış sahələrdir ki, burada onlar haqqında da xeyli məlumat verilir. Kitabın ən maraqlı cəhətlərindən biri də, burada buzlaqlar, xüsusən dağ buzlaqları haqqında geniş məlumat verilməsi, onların çayların qidalanmasındakı rolunun xüsusilə qabardılmasıdır.

Əsərdə tədqiq olunan ərazinin torpaq və bitki örtüyü haqqında da çox geniş məlumat verilir, bütün torpaq tipləri, bitki formasiyaları geniş təhlil edilir. Kitabın çox böyük bir hissəsi ərazinin coğrafi qurşaqlarının və təbii zonalarının təhlilinə həsr edilib. Göstərilir ki, Türk dünyasında yayılmış təbii zonalar istilik və rütubət rejiminə, hava kütlələrinin dövranına, biogeokimyəvi və geomorfoloji proseslərin ritminə, bitkilərin vegetasiyasına görə bir-birindən fərqlənir. Burada səhra və yarımsəhralardan başlamış arktik buz səhralarına qədər müxtəlif təbii zonalar yayılmışdır ki, kitabda onların hər biri geniş təhlil edilir. Kitabda həm




də Türk dünyasının əsas ekoloji problemləri göstərilir, onların hər birinin yaranma səbəbləri araşdırılır, təbiətin qorunması üçün müvafiq təkliflər irəli sürülür. Burada hər bir Milli park və qoruq haqqında da məlumat verilir.

"Türk dünyasının coğrafiyası və etnosu" monoqrafiyasının **"Fiziki coğrafiya"** adlanan birinci hissəsində verilmiş çox geniş elmi məlumatlar, çoxlu sayda xəritə, qrafik, cədvəl və fotoşəkillərlə müşayiət edilir ki, bunlar onu daha da oxunaqlı edir.

**"Türk dünyasının coğrafiyası və etnosu"** ilk dəfədir ki, belə böyük həcmdə çap edilir. Arzu edərdik ki, onun 2-ci və 3-cü cildləri də işlənərək çap edilsin və hər üçü başqa dillərə tərcümə edilərək digər Türk dövlət və qurumlarında yayılsın. Bizə elə gəlir ki, bu kitab Azərbaycan Milli Elmlər Akademiyasının, coğrafiyaçıların Böyük Türk dünyasına sanballı elmi hədiyyəsi kimi qiymətləndirilə bilər. Eyni zamanda, arzu edərdik ki, respublikamızın ali məktəblərinin müvafiq fakültələrində bu kitabdan dərslik kimi istifadə etməklə "Türk dünyasının coğrafiyası və etnosu" fənni tədris edilsin. Gələcəkdə isə bu məsələ digər Türk dövlət və qurumlarında da tətbiq edilə bilər.

**Tapdıq HƏSƏNOV,**
**BDU coğrafiya fakültəsinin kafedra müdiri, coğrafiya elmləri doktoru, professor**
**Habil HAQVERDİYEV,**
**AMEA akad. H.Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent.**

*17 aprel Dünya Hemofiliya Günüdür*

# Səhiyyədə aparılan islahatlar insanların sağlamlığına xidmət edir

**Xalqın sağlamlığının qorunması, vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə səhiyyə sahəsində uğurlu islahatlar həyata keçirilir, müasir avadanlıqlarla təchiz olunmuş yeni tibb mərkəzləri tikilir, səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın vətəndaşların sağlamlığına verdiyi böyük önəmin bariz nümunəsi ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar, qəbul olunmuş və həyata keçirilən dövlət proqramlarıdır.

Bu proqramlardan hemofiliya xəstəliyi ilə mübarizə sahəsinə aid olanlarının icrası təmin etmək üçün Səhiyyə Nazirliyi tərəfindən xüsusi Tədbirlər Planı həyata keçirilərək bir sıra mühüm işlər görülür.

"Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanunu, onun tətbiq edilməsi barədə Prezident İlham Əliyevin Fərmanı, Nazirlər Kabinetinin təsdiq etdiyi 2006-2010-cu illər üçün "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı" və 2011-2015-ci illəri əhatə edən Tədbirlər Proqramı bunun bariz nümunəsidir. Bununla yanaşı, ölkə başçısı 10 fevral 2015-ci il tarixli Sərəncamı ilə "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Bu proqramların məqsədi hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın keyfiyyətinin artırılması, həyat şəraitinin yaxşılaşdırılması, əlillik və ölüm hallarının azaldılması, hemofiliyanın fəsadlarının diaqnostikası, müalicə və profilaktikasının təkmilləşdirilməsi, xəstələrdə qanaxmanın profilaktikası məqsədilə faktor preparatları ilə müalicənin təşkil edilməsi və sair kimi tədbirlər görməkdən ibarətdir. Hemofiliyalı insan düzgün və vaxtlı-vaxtında müalicə alarsa, sağlam insan nə qədər yaşayarsa, o qədər yaşayar. Çünki təhlükəsiz qandan istehsal olunmuş preparatlarla müalicə xəstələri bütün problemlərdən sığortalayır.

Son illərdə xəstəliyin müalicəsi və diaqnostikası istiqamətində görülən mühüm işlər, həyata keçirilən tədbirlər bu xəstələrin dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaradıb. Xəstələrin müalicəsinin müasir səviyyədə təşkili, radikal müalicə üsulları sayəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, bu xəstəlikdən əlillik və ölüm halları azalıb.

**Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Gülnarə Hüseynova** hemofiliya xəstəliyi haqqında ətraflı məlumat verərək dedi ki, bu xəstəlik bütün dünyada, o cümlədən Azərbaycanda geniş yayılmış irsi qan xəstəliyidir. Hazırda Azərbaycanda qeydiyyata olan hemofiliyalı xəstələrin sayı 1633 nəfərdir. Bu gün ağır hemofiliyalı xəstə uşaqlarda birinci profilaktika işləri aparılaraq, əlilliyin qarşısı alınır, həyat keyfiyyətləri yaxşılaşır, onların həyat tərzi sağlam insanlardan seçilmir.

Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, milli və irqi mənsubiyyətindən asılı olmayaraq təxminən yeni doğulan 5000 oğlan uşağından biri hemofiliya A ilə doğulur.

Xatırladım ki, hemofiliya qanın laxtalanma xüsusiyyətinin pozulması ilə xarakterizə olunan xəstəlikdir. Bu zaman oynaqlara, əzələlərə və daxili orqanlara öz-özünə zədə və ya cərrahi müdaxilə nəticəsində qanaxma baş verir. Hemofiliya X xromosomunda bir genin konfiqurasiyasının dəyişilməsi, qanın laxtalanma prosesində iştirak edən VIII, IX və ya fon Villebrand faktorunun çatışmazlığı nəticəsində yaranır. Qanında laxtalanma faktoru normal səviyyədən 40 faiz az olan qadın, qanında həmin qədər laxtalanma faktoru olan kişidən heç nə ilə fərqlənmir. Bu o deməkdir ki, həmin qadında hemofiliya xəstəliyi vardır. Bəzi daşıyıcı qadınlarda qanında laxtalanma faktoru 40%-dən çox olduqda belə, hemofiliya əlamətləri özünü göstərir. Anomal qanaxma təcrübəsi daşıyan və qanında laxtalanma faktoru normal miqdarın 40-60 faizi qədər olan qadınlar simptomatik daşıyıcılar adlanırlar.

Ağırlıq dərəcindən asılı olaraq xəstəliyin bir neçə formaları mövcuddur ki, bu da qanda olan laxtalanma faktorunun səviyyəsindən asılıdır. Hemofiliyanın ağır formasından əziyyət çəkən xəstələr oynaqlara (hemartroz) və əzələlərə (hematoma) tez-tez qan sızması nəticəsində əlilliyə səbəb olan ciddi fəsadlaşma ilə üzləşirlər. Hemofiliyalı xəstələr mütəmadi olaraq laxtalanma faktorları qəbul etmədikdə dəfələrlə baş verən şiddətli qanaxmalar, oynaqlara və yumşaq toxumalara qansızmalar onların uşaq və gənc yaşlarında əlilliyinə, bəzi hallarda isə ölümünə səbəb olur. Xəstəlik zamanı oynaqlara, əzələlərə və daxili orqanlara öz-özünə, travmalar nəticəsində və yaxud cərrahi müdaxilə nəticəsində qanaxmalar baş verə bilir. Hətta xırda zədələr nəticəsində hemofiliyalı xəstələrin beyninə və ya digər həyati əhəmiyyətli orqanlarına qan sızmasının ölümlə nəticələnməsi ehtimalı yüksəkdir.

Xəstəliyin simptomları demək olar ki, bütün hallarda erkən uşaqlıq dövründə, çox vaxt körpənin həyatının 4-5-ci gününə qədər özünü göstərir. Təkrar baş verən şiddətli qanaxmalar zamanı qan oynaq və yumşaq toxumalara yığılması xəstənin hələ uşaq və gənc yaşlarında əlil və ya şikəst olmasına, bəzən də ölümünə səbəb olur. Lakin çoxillik təcrübələr göstərir ki, vaxtında və lazımi səviyyədə antihemofil preparatlarla aparılan müalicə xəstələri nəinki ölüm təhlükəsindən xilas edir, hətta onlarda şikəstliyin və əlilliyin qarşısını alır.

İrsi qan xəstəliklərindən, o cümlədən hemofiliyadan əziyyət çəkən xəstələrə tibbi yardımın dərhal və vaxtında göstərilməsi üçün rayonlarda da hematoloji kabinetlər təşkil olunub. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Azərbaycan Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının təşəbbüsü ilə 2014-cü ildə Dr. Təranə Cəlilovanın rəhbərliyi ilə Şirvan Regional Hemofiliya Mərkəzi fəaliyyət göstərir. Mərkəz laboratoriya və hemotoloji kabinetlə fəaliyyətə başlayıb. 2018-ci ilin iyun ayında fizioterapevtik kabinet də açılıb. Kabinet Azərbaycan Hemofiliyalı Xəstələrin Respublika Assosasiyasının köməyi ilə müasir aparat və avadanlıqlarla təchiz olunub. Hemofiliyalı xəstələrin qeydiyyatını aparmaq, onların məlumat bazasını yaratmaq məqsədi ilə xəstələrin registri tərtib edilib ki, bu da dərman preparatlarının istifadəsinə nəzarətin həyata keçirilməsində və xəstələrə göstərilən tibbi yardımın qiymətləndirilməsində mühüm rol oynayır.

Hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsi, faktor preparatları ilə müalicə nəticəsində baş verən ağırlaşmaların aradan qaldırılması, xəstələrə ilkin yardımın yerlərdə göstərilməsinin təşkili, kiçik yaşlı uşaqlarda birincili profilaktikanın təkmilləşdirilməsi, artropatiyaların cərrahi müalicə üsullarının tətbiqi uğrunda tədbirlərlə davam etdirilir.

Tədbirlər Proqramı çərçivəsində, bu sahədə çalışan mütəxəssislər üçün müvafiq təlimlər keçirilir, xarici ölkələrdə konfrans və simpoziumlarda iştirakı təmin edilir.

Qeyd edək ki, Ümumdünya Hemofiliya Günü Ümumdünya Səhiyyə Təşkilatının və Ümumdünya Hemofiliya Federasiyasının təşəbbüsü ilə təsis olunub. Bu günün qeyd olunmasında məqsəd hemofiliyadan əziyyət çəkən insanların hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin, siyasətçilərin və səhiyyə işçilərinin diqqətini cəlb etmək, bu barədə onların məlumatını artırmaqdır.



**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# 4-cü "Barama İnkubasiya Proqramı" üzrə qalib layihələr bəlli olub





**"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin öz ideyalarını biznesə çevirmək və uğurlu karyera qurmaq istəyən gənclər üçün elan etdiyi 4-cü İnkubasiya Proqramının seçimləri başa çatıb. Münsiflər heyətinin qarşısında öz layihələrini təqdim edən 13 startapdan yüksək bal toplayan 6-sı proqramda iştirak etmək haqqı qazanıb. Seçimlərdən uğurla keçən komandaların rəhbərləri Fuad Gülməmmədov, Tuncay Hüseynov, İsa Zeynal, Məhəmməd Kekalov, Tural Zəkəryazadə və əcnəbi rezident olan Javier Chau Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində öz layihələrini reallaşdırmaq şansını əldə ediblər.**

Məlumat üçün bildirək ki, İnkubasiya Proqramına seçim prosesi 2 mərhələdən ibarət olub. Birinci mərhələdə qeydiyyatdan keçmiş layihələr mərkəz tərəfindən dəyərləndirilib və seçilmiş komandalar ikinci mərhələyə dəvət olunub. İkinci mərhələdə komandalar öz layihələrini biznes plan və təqdimat formasında nümayiş etdiriblər.

Onu da qeyd edək ki, 6 aylıq inkubasiya proqramının sonunda ən uğurlu startapın təklif etdiyi məhsul və ya xidmət korporativ müştəri olaraq Azercel-ə təqdim olunacaq.

İnkubasiya proqramında İnformasiya Texnologiyaları, Virtual oyunlar, Media, Səhiyyə Texnologiyaları (MedTech), Əşyaların İnterneti (İoT), Maliyyə Texnologiyaları (FinTech), Kənd təsərrüfatında innovativ həllər (AgTech), Virtual Reallıq (VR), Artırılmış Reallıq (AR), Süni Zəka (Aİ), Bulud Hesablamaları və Biznes Həlləri sahələrinə üstünlük verilib.

Azercell və PAŞA Bankın dəstəyi ilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkədə startap mühitinin və rəqəmsal ekosistemin inkişafını hədəfləyərək, rezident startapları 6 ay ərzində ödənişsiz ofis məkanı, konsultasiya xidmətləri, təlim proqramları ilə təmin edir, onlara peşəkar biznes şəbəkəsi ilə sıx işgüzar əlaqələr qurmaq imkanı yaradır. ■

Xəzər Rayon İcra Hakimiyyəti
Açıq Tender Elan Edir
Tender 1 (bir) lot üzrə keçirilir:

Lot-1. Xəzər Rayon İcra Hakimiyyətinin inzibati binasının 3-4-cü mərtəbələrində divar və tavanların, santexnika qovşaqlarının, metlax və kafellərin sökülərək yeniləri ilə əvəz olunması və plastik qapıların dəyişdirilməsi, eyni zamanda əl-üz yuyanların dəyişdirilib yeniləri ilə əvəz edilməsi məqsədilə cari təmir işlərinin aparılması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Bakı şəhəri, Mərdəkan qəsəbəsi, Telman küçəsi 4
Lot üzrə iştirak haqqı: 100 (yüz) AZN
Əlaqələndirici şəxs: Məlahət Dəmirova
Telefon: 454-45-48.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
S.V.İ.F.T. CTREAZ22
Xəzər Rayon İcra Hakimiyyəti:
Hesab: AZE45CTRE00000000000002517431
VÖEN: 1200104751
Təsnifatın kodu büdcə: 142328
Büdcə səviyyəsinin kodu: 7y.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyanın vacibliyi.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 22 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 31 may 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 3 iyun 2019-cu il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

**BİLDİRİŞ**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin 29 dekabr 2018, 25 yanvar, 07 fevral 2019-cu il tarixli elanlarına əsasən 19 fevral və 12 aprel 2019-cu il tarixdə əşya-geyim əmlaklarının (Lot 4-9, 11, 14-20, 24-25, 29-32, 34-36 və 38-39), poliqrafiya və sərf materiallarının, avadanlıqlarının, ehtiyat hissələrinin texniki təmir və servis xidməti işlərinin, ofis avadanlıqlarının ehtiyat hissələrinin və xüsusi aşılanmış qovluqlar (Lot 1-5) və yemlik arpa və vələmir, yonca otu və yeməkxana və mətbəx avadanlıqlarının təmiri və texniki qulluq göstərilməsi işlərinin (Lot 1-3) satınalınmasına dair keçirilmiş açıq tenderin nəticələri qiymətləndirilmiş və tender təklifləri aksept edilmişdir. Nəticədə tender proseduruna əsasən şirkətlərlə satınalma müqavilələri imzalanmışdır.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

**BİLDİRİŞ**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin 29 dekabr 2018-ci il tarixli elanında dərc edilmiş Lot 21 "Gündəlik geyim parçası", Lot 1 "Dəniz dalğası rəngli komuflyaj parçadan yay gödəkçəsi, yay şalvarı və furajka" Lot 2 "Dəniz dalğası rəngli komuflyaj parçadan qış gödəkçəsi və qış şalvarı", Lot 27 "Corablar", Lot 28 "Süngər döşək", və Lot 33 "Komuflyaj rəngli plaş çadır"-ın satınalınması üzrə keçirilmiş açıq tenderin nəticələri qiymətləndirilmiş və "Dövlət satınalmaları haqqında" Qanunun 11.1 və 27.4-cü maddələri rəhbər tutularaq ləğv edilmişdir.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**




## ❑ NOTR-DAM KİLSƏSİNDƏKİ YANĞINLA BAĞLI ÜÇ VERSİYA



Fransanın Daxili İşlər Nazirliyi Notr-Dam kilsəsində baş verən yanğınla bağlı artıq üç əsas versiyanı nəzərdən keçirir. Bu barədə "Report" agentliyi Rusiya mətbuatına istinadən məlumat yayıb.

Verilən xəbərə görə, əsas versiya kimi yanğının təsadüfən baş verməsi nəzərdən keçirilir. Belə ki, yanğın zamanı tam məhv olan kilsə qülləsi və ona birləşik hissələrin təmir zamanı yenilənməsi planlaşdırılırdı. Bu səbəbdən də yanğının qaynaq aparatından, kabellərdən və ya hansısa kimyəvi maddənin yayılmasından yarana biləcəyi ehtimal edilir.

Eyni zamanda, bildirilir ki, bu növ tikililərdə təhlükəsizlik qaydalarına əməl edilməməsini təsəvvür etmək çətindir. Buna görə də Fransa mətbuatı lap əvvəldən kilsənin qəsdən yandırıldığı versiyasını irəli sürüb. Yanğının Parisin rəmzi olan məbəddə prezident Emanuel Makronun "sarı jiletlilər"in nümayişinə qarşı çıxışından bir saat əvvəl başlaması diqqət çəkir.

Üçüncü variant isə terrorçuluqla bağlıdır. Yanğın katoliklərin Pasxa bayramından əvvəlki Müqəddəs Həftənin əvvəlində baş verib. Həmçinin Fransada son iki ay ərzində 10 kilsə yandırılıb və bu baxımdan Notr-Dam faciəsi təsadüfdən çox müəyyən hadisələr zəncirinin kulminasiyasına daha çox bənzəyir.

Bununla yanaşı, verilən xəbərə görə, Paris şəhərinin prokuroru Remi Heitz jurnalistlərə açıqlamasında bildirib ki, Notr-Dam kilsəsində baş verən yanğının qəsdən törədilməsinə dair hələlik heç bir dəlil tapılmayıb. Onun sözlərinə görə, hazırda istintaq hadisənin başvermə səbəblərini araşdırır.

"Hələlik yanğının yalnız texniki təhlükəsizliyə əməl edilməməsi nəticəsində baş verdiyi ehtimal edilir. İstintaq prosesinə 50 müstəntiq cəlb olunub. Artıq kilsənin bərpa və yenidənqurma işlərində çalışan 30-a yaxın fəhlənin sorğu-sual edilməsinə başlanılıb. Onlardan 15 nəfəri dinlənilib, qalanları da sorğu-sual ediləcək".

## ❑ LİVİYADA TOQQUŞMALAR NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI DURMADAN ARTIR



Liviyanın paytaxtı Tripolidə aprelin 4-dən bu günə kimi davam edən qarşıdurmalarda 174 nəfər həlak olub, 756 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Ümumdünya Səhiyyə Təşkilatının sözçüsü Tarık Jasareviç BMT-nin Cenevrə ofisində keçirilən mətbuat konfransında general Xəlifə Həftarın aprelin 4-də paytaxt Tripolini ələ keçirmək üçün hücum əmrilə baş verən hadisələrə toxunub.

Eyni zamanda, Tarık Jasareviç Tripolidəki toqquşmalarda indiyədək mülki vətəndaşlardan 14 nəfərin öldüyünü, 36-sının isə yaralandığını bildirib.

Digər tərəfdən BMT-nin Humanitar İşlər üzrə Koordinasiya Mərkəzinin məlumatına görə, Tripoli ətrafındakı qarşıdurmalar artıq 18 min dinc sakini ev-eşiyindən məhrum edib.

Qeyd edək ki, Liviyanın şərqindəki hərbi qüvvələrin lideri general Xəlifə Həftar paytaxt Tripoliyə nəzarəti ələ keçirmək üçün aprelin 4-də qoşunlarına göstəriş vermiş, bunun nəticəsində Milli Həmrəylik Hökumətinə sadiq qüvvələr isə "Vulkanın qəzəbi" əməliyyatına başlamışdı.

## ❑ YƏMƏN MÜNAQİŞƏSİNDƏ FRANSIZ SİLAHLARI İSTİFADƏ OLUNURMUŞ



"Radio France" və "Disclose" dövlət internet saytının Fransa Müdafiə Nazirliyi nəzdindəki hərbi kəşfiyyat şöbəsinə aid 25 sentyabr 2018-ci il tarixli məxfi sənədinə əsaslanan xəbərində Fransa hökumətinin Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə satdığı silahların Yəməndə husilərə qarşı istifadə edildiyi qeyd olunub. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Yəməndə Fransaya məxsus 48 ədəd "CAESAR" topunun istifadə edildiyi regionlarda 2016-cı ilin martı ilə 2018-ci ilin dekabr ayı arasında edilən 52 hücumda 35 mülki vətəndaş həyatını itirib.

Eyni zamanda, Yəməndə 70 ədəd Fransa qırıcı təyyarəsi və 1990-cı illərdə Fransanın Birləşmiş Ərəb Əmirliklərinə satdığı döyüş tankı da istifadə edilib.

Sənəddə o da qeyd olunub ki, Yəməndə ən çox insan tələfatına hava hücumları səbəb olub.

Bununla yanaşı, bildirlir ki, Rəsmi Ər-Riyad 2015-ci ilin martından bu yana husilərin nəzarətində olan torpaqlara 24 min intensiv hava hücumları həyata keçirib. Səudiyyə Ərəbistanının Yəməndə bu hava hücumları üçün istifadə etdiyi döyüş təyyarələri məhz Fransanın "Thales" şirkəti tərəfindən istehsal olunub.

Sözügedən sənədin hesabatı 2018-ci il oktyabrın 3-də Yəmən mövzusunda keçirilən xüsusi iclas zamanı Fransa prezidenti Emmanuel Makron, xarici işlər naziri Jan-İv le Drian və müdafiə naziri Florens Perliyə çatdırılıb. Lakin Florens Perli yanvarın 20-də "France Inter" radiosu, Jan-İv le Drian isə fevralın 13-də parlamentdə Səudiyyə Ərəbistanına heç bir silah vermədiklərini və Yəməndə Fransa silahlarının istifadə edilmədiyini bildirmişdilər.

## ❑ İSRAİLDƏ HÖKUMƏTİ QURMAQ NETANYAHUYA HƏVALƏ EDİLİB



İsrail hökumətini formalaşdırmaq yenidən Benyamin Netanyahuya həvalə edilib. "Report" agentliyinin məlumatına görə, "Likud", "ŞAS", "Yaadut a-Tora", "İhud Mifalaqot a-Yamin", "Evimiz İsraildir" və "Kulanu" partiyaları hökumət qurmağı B.Netanyahuya tapşırıblar. O, bununla da 65 deputatın dəstəyini qazanıb.

Verilən xəbərə görə, İsrail prezidenti Reuven Rivlin partiyalarla hökumətin formalaşdırılması ilə bağlı danışıqlardan sonra bunun son nəticə olmadığını qeyd edib. "Şikayət və müraciətlərin araşdırılması davam edir. Bu, hələ son nəticə sayılmır", - deyə prezident vurğulayıb.

Mərkəzi Seçki Komissiyasının nümayəndəsi bildirib ki, seçkilərin yekunu aprelin 17-də açıqlanacaq, bu tarixdən etibarən 28 gün ərzində hökumət formalaşdırılmalıdır. Bu müddət kifayət etməsə, bu zaman hökuməti formalaşdırmaq üçün Benyamin Netanyahu daha 14 gün möhlət istəyə bilər.

Məlumat üçün qeyd edək ki, aprelin 10-da İsraildə parlament seçkiləri keçirilib.

## ❑ İRANDA 2 MİLYON İNSANIN HUMANİTAR YARDIMA EHTİYACI VAR



Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) İranda şiddətli yağışlardan yaranan daşqınlarla bağlı ölkə miqyasında təxminən 2 milyon insanın humanitar yardıma ehtiyac duyduğunu bəyan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Federasiyadan verilən açıqlamada bildirilir: "İranda martın 17-dən davam edən şiddətli yağışlar ölkədəki 31 əyalətdən 25-ni iflic edib. Sel fəlakəti bir çox şəhər və qəsəbəyə ziyan vurub. Həmçinin 10 milyon insana təsir göstərib, bəziləri uzunmüddətli olmaqla, yarım milyondan çoxu ev-eşiyindən məhrum olub, 78 nəfər həyatını itirib, 1136 nəfər isə yaralanıb. Ölkə miqyasında təxminən 2 milyon adamın humanitar yardıma ehtiyacı var".

Eyni zamanda, federasiyanın açıqlamasında İran Qırmızı Aypara Cəmiyyətinin beynəlxalq əlaqələr və insan hüquqları üzrə baş katibinin birinci müavini Zəhra Falahatın da sözlərinə yer verilib. O deyib: "Bu, İranı 15 ildən sonra sarsıdan ən böyük fəlakətdir. İran Qırmızı Aypara Cəmiyyəti ölkə tarixinin ən böyük yardım işlərini aparır, insanları xilas etmək üçün mümkün olan hər mənbədən istifadə edir. Lakin bütün bunlar yenə yetərli deyil".

Qeyd edək ki, İranın daxili işlər naziri ölkənin 25 vilayətini təsiri altına alan sel fəlakətinin vurduğu ziyanın 7 milyard 619 milyon dollar olduğunu bildirib.

## ❑ MARK ZUKERBERQ İSTEFAYA GÖNDƏRİLƏ BİLƏR



"Facebook" şirkətinin bir neçə səhmdarı illik toplantı zamanı Mark Zukerberqin direktorlar şurasının sədri vəzifəsindən kənarlaşdırılması və şirkətin strukturunun dəyişdirilməsinin müzakirə olunmasını yenidən təklif ediblər. "Report" agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə "Business Insider" nəşri məlumat yayıb.

Qəzetin qeyd etdiyinə görə, şirkət Qiymətli Kağızlar və Birjalar üzrə Federal Komissiyaya baxılmaq üçün göndərilən sənədlərdə səhmdarların illik toplantısının 30 may tarixində keçiriləcəyini bildirib və səhmdarların səsverməyə çıxarılacaq təkliflərini təsdiq edib.

Məlumata görə, səhmdarlar tərəfindən müzakirə üçün irəli sürülən 8 təklifdən ikisində söhbət şirkətin strukturunda dəyişiklik və "müstəqil sədr"in təyin edilməsindən gedir.

Bununla yanaşı, nəşr yazır ki, iclas zamanı bu təkliflərin qəbul olunma şansı son dərəcə aşağıdır, çünki "Facebook" onlarla qəti razı deyil və Zukerberqin özü səsvermə səhmlərinin 50 faizdən çoxuna sahibdir. ■

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 05 fevral 2019-cu il tarixdə LOT-2 üzrə "Bakı Metropoliteni" QSC-yə 2019-cu il üçün illik nəzərdə tutulan "Kartriclərin satın alınması" məqsədi ilə açıq tender üsulu ilə keçirilən müsabiqədə Tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq, tenderdə iştirak etmiş şirkətlər arasında "Bakinity Distribution" MMC ƏDV-ilə 97713.44 (doxsan yeddi min yeddi yüz on üç manat 44 qəpik) manat məbləği ilə Tender Komissiyasının qərarı ilə bu lot üzrə qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 16.04.2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin**
**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti 07 fevral və 17 fevral 2019-cu il tarixində "Cari təmir" maddəsi ilə verilmiş elanla əlaqədar 29 mart 2019-cu il tarixində keçirilmiş tenderdə "Azərtəmirgeotex" MMC qalib elan edilmişdir və satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdindəki Azərbaycan-Fransa Universiteti internet server infrastrukturuna və qurulan bütün şəbəkə infrastrukturuna 1 (bir) il müddətinə texniki dəstək xidmətləri üzrə "kotirovka sorğusu" keçirir. Kotirovka sorğusunda iştirak etmək istəyən iddiaçılar 22 aprel 2019-cu il saat 10.00-dək aşağıdakı ünvana müraciət etməlidirlər. Bakı şəhəri, Azadlıq prospekti 20.

**Tender Komissiyası.**

## QARADAĞ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI APARATININ MƏNZİL-KOMMUNAL TƏSƏRRÜFATI İSTEHSALAT BİRLİYİ

Ödənişli ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyimlər və təsərrüfat malları ilə təmin olunmasının təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 012-445-28-89 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 18.04.2019-cu il saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Qaradağ ray., Lökbatan qəs., Musəvi küç. 7.*

## "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender bir lot üzrə keçirilir.**

Digər maşın və avadanlıqların satın alınması barədə ətraflı məlumat (miqdarı, həcmi, xüsusiyyətləri, təqdim olunması vaxtı və yeri və s.) tenderin əsas şərtlər toplusunda göstərilmişdir.

İddiaçılara təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlı zərfdə yazılı surətdə təqdim etsinlər.

İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təklifləri bal sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Təkliflərin qiymətləndrilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, qrafikə uyğun malların təhvil verilməsi.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edilə bilər. Əlaqələndirici şəxs: Məmmədov Samir Şaiq oğlu. Tel.: (012) 424 32 84, mob./tel.: (055) 455 41 38, ünvan: Bakı şəhəri, Nobel pr., 61.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Tenderin əsas şərtlər toplusunu almaq istəyənlər 200 manat iştirak haqqı köçürdükdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi, VÖEN: 1401555071, kod 210005,*
*M/h: AZ41NABZ01360100000000003944*
*SWİFT: CTREAZ22*
*Alan təşkilat: "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC, VÖEN: 1100496071*
*büdcə təsnifatının kodu 142340, büdcə səviyyəsinin kodu: 7, fond 7,*
*hesab № AZ62CTRE00000000000002197801*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 21 may 2019-cu il saat 17:00 tarixə qədər aşağıdakı sənədləri (tender təklifi və təklifin 1% bank zəmanəti istisna olmaqla) təqdim etməlidirlər.

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-İştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tender təklifi (təklif zərfləri açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) və ümumi təklifin 1%-i həcmində tender təklifinin təminatını - bank zəmanətini (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) 30 may 2019-cu il saat 17:00-a qədər iki nüsxədən ibarət (əsli və surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Bakı şəhəri, Nobel pr., 61 ünvanında yerləşən tender komissiyasına təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Bakı şəhəri, Nobel pr., 61 ünvanında yerləşən "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC-nin inzibati binasında 31 may 2019-cu il tarixdə saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndəsi etibarnamə əsasında tenderdə iştirak edə bilər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi avtomobil yolunun kənarında ("Qanlı göl"ün şimal hissəsi) yerləşən 15,4 ha torpaq sahəsində çoxmənzilli binaların tikintisi üçün potensial imkanlara malik olan investorları cəlb etmək məqsədilə MÜSABİQƏ ELAN EDİR

Maraqlananlar +99412 594-54-01 (daxili 238) telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

Müsabiqədə iştirak etmək üçün aşağıda qeyd edilən hesaba 300 (üç yüz) manat iştirak haqqı ödəməklə müsabiqə şərtlərini 2019-cu il 24 aprel saat 17:00-dək, Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanında əldə etmək olar.

*VÖEN: 1701953921*
*"Kapital Bank" ASC Mərkəz filialı*
*Filialın kodu: 200026*
*VÖEN: 9900003611*
*SWİFT kod: AİİBAZ2X*
*M/h AZ37NABZ01350100000000001944*
*MİDA MMC*
*Hesab:*
*AZ18AİİB38030019440029636102*

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Təkliflər 2019-ci il 07 may saat 17:00-dək qəbul olunur.

**Müsabiqə Komissiyası.**

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi cihaz-avadanlıq və elektrik avadanlıqlarının satınalınması üzrə

## AÇIQ TENDER ELAN EDİR

| Tender 2 (iki) lot üzrə keçirilir: | | İştirak haqqı *(manatla)* |
|---|---|---|
| Lot 1 | Cihaz-avadanlıqlar | 400,00 |
| Lot 2 | Elektrik avadanlıqları | 300,00 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasından əldə edə bilərlər.

*Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi*
*VÖEN: 1401347471*
*H/h: AZ11CTRE00000000000002658402*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*M/h: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T BİK: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqə telefonu: (012) 512-47-34**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu,nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 ay müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 23 may 2019-cu il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 03 iyun 2019-cu il saat 17:00-dək Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

Tender təklifində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 04 iyun 2019-cu il tarixində, saat 12:00-da Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər zərflərin açılışında iştirak edə bilər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Bakı Ali Neft Məktəbi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş 4-cü SOCAR Beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" Formunun keçirilməsi ilə əlaqədar iş və xidmətlərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 521 00 00 (dax. 33012) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər Xocalı pr.30 ünvanında 18 aprel 2019-cu il tarixə, saat 15:00-a dək qəbul olunur.

## BİLDİRİŞ

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Respublika" qəzetinin 1 fevral 2019-cu il tarixli nömrəsində elan edilmiş açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Lot 1. "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Tərəflər Konfransının 6-cı sessiyasının keçirilməsi üçün tələb olunan mal və xidmətlərin satın alınması üzrə "Aristokrat Travel" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

